# ELM HÖVZƏLƏRİNDƏ YENİLİK

## AYƏTULLAH XAMENEİNİN ÇIXIŞLARI ƏSASINDA

**"Böyük Rəhbərin elm hövzələrinə tapşırıqları" şöbəsi**

Böyük Rəhbərin hövzənin alim və müdirləri ilə görüşdə çıxışı
(29 Noyabr 1995)

Çox böyük, əhəmiyyətli və yaddaqalan bir məclisdir. Şiənin ən böyük elm hövzəsinin açar şəxsiyyətləri toplaşmış, bu mübarək hövzədə çalışan alimlər, elmi fəallar və görkəmli şəxslər təşrif buyurmuşlar. Bu hövzənin və bu böyük mədrəsənin sizin kimi bir tələbəsi olan mən burada əsasən, bu mübarək hövzə barədə fikirlərimi bildirmək istəyirəm.

### *Hövzənin bu gününün və gələcəyinin araşdırılması*

Mövzu seçimində tərəddüd etmədim. Demək üçün söz var. Lakin mənim demək istədiyim və bu faydalı imkandan istifadə üçün tərcih etdiyim söz, fikrimcə, belə bir məclisdə deyiləcək hər bir sözdən əhəmiyyətli və lazımlıdır. Bu söz elm hövzəsi, ruhani cəmiyyəti, böyük və saleh bəndələrin əli ilə bu yerdə qurulmuş uca elm, din, təbliğat və hidayət mərkəzi barədədir. Mənim mövzum hövzənin bu günü və gələcəyi haqqında olacaq.

### *Şiə elm hövzəsinin şərəfli tarixinə bir baxış*

Bu gün adını fəxrlə çəkdiyimiz Qum Elm Hövzəsi əslində hövzələr tarixi boyunca şiə hövzələrinin seçilmişi və xülasəsididir. Yəni ikinci əsr insanlarından və ən azı, üçüncü hicri əsrinin əvvəllərindən elm hövzəsi adlı mərkəzlər təsis olundu. Qum hövzəsi qumlular dövründə, yəni son üç imamın - həzrət Cavad (ə), həzrət Hadi (ə) və həzrət Əsgərinin (ə) dövründə sözün həqiqi mənasında bir elm hövzəsi olmuşdur. Orada dərs, müzakirə, tədqiqat, nəşr, tədris və təhsil görünür. Bununla yanaşı, Mədinə, Kufə və digər şəhərlərdə imamların ətrafında olan səhabə, hədisşünas və elm daşıyıcılarından keçir, bu mərkəzlərə elm hövzəsi terminini şamil etmirik.

Buna əsasən, bizim elm hövzələrimizin ən qədimi bəlkə də bu Qumdur. Orada Əşərilərin, Babuyə ailəsinin və digərlərinin əsərləri

bu günə qədər qalmışdır. Düzdür, ondan sonra elm hövzəsi belə əzəmətli qalmamışdır, dünyanın digər yerlərinə, misal üçün, İslam dünyasının şərqinə, Mavəraünnəhrə və Xorasanın şərqinə köçürülmüşdür. Şeyx Əyyaşi, Şeyx Kəşşi, səmərqəndilər, nəsailər, adlarını hədisşünasların, rəvayətçilərin və müəlliflərin sırasında tanıdığınız digər şəxsiyyətlər oralarda yaşamışlar. Həmçinin Şeyx Müfidin, ondan sonra Seyid Mürtəzanın və Şeyx Tusinin hövzəsi olan Bağdad hövzəsi, təxminən 450, 448, yaxud 449-cu ildə Şeyx Tusinin Nəcəfə hicrəti, fiqh, hədis və digər İslam elmlərinin tədrisi üçün bir mərkəzin təsis edilməsi ilə başlayan Nəcəf hövzəsi dövrləri də mühüm tarixi dövrlərdir.

Sonra Şamda, Tripolidə, Hələbdə və ondan sonra Hillədə şiə elm hövzələri yaranır. Bizim Hillədən olan böyük fəqihlərimizin adları tarixdə, əsərləri şiə fiqhinin böyük kitabxanalarında qorunur. Bu proses davam edir, nəhayət, İranda Səfəvi şahlığı qurulur və möhtəşəm tarixi bir dönəm başlayır.

Bəzi şəxslərin Səfəviləri şiəliyin, İslamın, dinin və dəyərlərin əleyhdarı kimi tanıtdırmağa çalışmasına, həmçinin Səfəvi şahlarının gördükləri bütün pis işlərə baxmayaraq, onlar böyük, yaddaqalan və unudulmaz addımlar da atıblar. Bu addımların biri şiənin elm hövzələrinin genişləndirilməsidir. O zaman İsfahan, Xorasan, Qum, Nəcəf və digər bölgələrin elm hövzələri onların sayəsində abadlaşdı. Bunu kim araşdırsa, möhtəşəm işlərlə rastlaşar. Siz Səfəvilərdən qabaqkı şiə fəqihlərinə baxsanız, görərsiniz ki, iranlıların sayı barmaq sayı qədərdir. Lakin Səfəvilərdən sonra böyük alimlərin bəlkə də 90 faizi iranlılardır.

Bu dövrdən sonra Nəcəf və Kərbəla hövzələrinin zirvəsi, mərhum Vəhid Bəhbəhani, sonra şeyxin və Cəvahir sahibinin şagirdlərinin dövrü başlayır və son dövrə qədər davam edir. Sonra fiqh hövzəsinin böyük mərkəzi mərhum Ayətullah Hairi və sonra mərhum Ayətullah Bürucerdinin vasitəsi ilə yenə də Quma köçürülür

və bu günə qədər davam edir. Bu hövzə uyğun tarixi prosesin məhsulu, mühacirətlə, tədqiqatla, elmlə yanaşı və bu gün də sizin ixtiyarınızda olan bu böyük elm hərəkətinin hamısının nəticəsi, yekunu və məğzidir.

Elm hövzələri çox əhəmiyyətli tarixi və elmi bir mövzudur. Yaxşı olar ki, hövzə alimlərindən və fikir sahiblərindən kimlərsə əsaslı və elmi formada bu mövzunu araşdırsınlar; görürəm ki, Allahın lütfü ilə araşdıranlar da var.

**Qorumaq, bərpa etmək və çiçəkləndirmək - hövzə vəzifələrinin üç əsas mərhələsi**

Bu gün bizim on iki əsrin irsi olan belə bir hövzə qarşısında vəzifələrimiz var. Mən bir-biri ilə bağlı olan üç vəzifəyə toxunacağam. Bunlar aydın məsələlərdir, dəlil-sübuta ehtiyac yoxdur: qorumaq, bərpa etmək və çiçəkləndirib inkişaf etdirmək, elm hövzələrini böyütmək.

***Qorumaq mərhələsində hövzənin uğuru***

Allaha şükür olsun ki, hövzə qorunmuş, kəmiyyət və keyfiyyət baxımından keçmişə nisbətən inkişaf etmişdir. Ümumi olaraq, bu məsələdə şübhə yoxdur. Lakin bərpa məsələsi bir qədər daha dəqiq və çətindir. Ondan da çətini isə çiçəkləndirmək və inkişaf etdirməkdir. Qədim irsi təkcə qoruyub gələcəyə təhvil vermək kifayət etmir. Çünki belə bir məsələdə dayanmağın özü geriləməkdir.

***Yeni məfhumlar yaratmaq - bərpa səviyyəsinin əsas göstəricisi***

Bərpa nə deməkdir? Yəni hövzə yoxluqlardan və itkilərdən yaranmış boşluğu doldurmaq üçün yenilərini yetişdirsin. Həmçinin qüvvədən düşmüş köhnə məfhumların yerinə yenilərini yaratsın. Məfhumlar köhnəlir, tədricən və zaman ötdükcə öz təravətlərini

itirirlər. Müxtəlif baxış və fikirlərin daxil olması və zamanın ötməsi nəticəsində bir düşüncə sarsılıb ilkin möhkəmliyindən uzaqlaşdıqdan sonra onun yerinə yeni məfhumlar ortaya qoyulmalıdır.

Bu kifayət etmir ki, biz misal üçün, üsul elmində Füsul, yaxud Qəvanin kitablarına baxıb onların mövzularının çoxunu qüvvədən düşmüş sayaq; necə ki, həqiqətən belədir. İndi hansı alim, ruhani, üsul alimi və tədqiqatçısı öz üsul araşdırmalarında Füsul kitabına, yaxud Qəvanin kitabının bir çox fəsillərinə ehtiyac duyur?! Onlar köhnəlmişlər. O sözlərin çoxu rövnəqdən və dəyərdən düşmüşdür. İndi onlardan yaxşıları bazara daxil olmuşdur.

Deməli, məfhumlar köhnəlir. Bütün elmlərdə bu var. Köhnəlmiş söz, mövzu və məsələlərin yerini doldurmaq üçün yeni mövzular ortaya qoyulmalıdır. Hər bir elmdə beyin mühiti lazımi məfhumların həcmi baxımından tamamlanmalıdır. Bu, bərpadir. Bunun üçün çox çalışmaq lazımdır.

### *Elmlərdə yeni üfuqlər açmaq - hövzənin çiçəklənməsinin sirri*

Ondan da mühüm olan çiçəklənmə məsələsidir. Çiçəklənmə - inkişaf etmək, bir addım irəliləmək və yeni üfuqlər kəşf etmək deməkdir. Çiçəklənmə o deyil ki, biz bir mövzuya daha artıq diqqət ayıraq. Fərz edin, altıncı əsr aliminin bir növ dəlillə sübut etdiyi bir məsələni biz indi daha dəqiq araşdıraq, onun bəzi dəlillərini gücləndirək, bəzilərini rədd edək və məsələnin möhkəmlənməsinə səbəb olaq. İş təkcə bu deyil. Yeni üfüqlər açılması həm elmin özünə, yəni fiqhə, həm də elmin məhsuluna, yəni fiqh məsələlərinə aiddir. Üsul, kəlam və digər elmlər də belədir. Bunların hamısının çiçəklənməyə ehtiyacı var.

### *Canlı hövzə - çiçəklənmiş hövzə*

Elm hövzələri o zaman bərpa ola, inkişaf edə və çiçəklənə bilərlər ki, canlı olsunlar. Ölmüş hövzə buna qadir deyil. Bəşər reallıqları insanların özləri kimidir: həyata, ölümə, zəifliyə, güclülüyə, xəstəliyə və sağlamlığa malikdirlər.

Elm hövzələri də belədir. Xəstə və sağlam, zəif və güclü, sağ və ölü hövzələr mövcuddur. Hövzə diri, sağlam və güclü olmalıdır ki, inkişaf edə, yeni üfüqlər aça və bəhrələnənlər üçün yeni imkan yarada bilsin.

Qum Elm Hövzəsinin keçmişini izah etdikdə demək istəmirik ki, onlar təkcə zaman və tarix baxımından bu hövzənin sələfləridir. Məzmun baxımından da belədir. Şeyx Tusinin tədqiqatları, İbn İdrisin və Mühəqqiq Hillinin yenilikləri, Əllamənin geniş fiqh araşdırmaları və digərlərinin gördüyü işlərin hamısı bu gün bu hövzədə tərənnüm olunur. Bu on iki əsr boyu fiqhdə, üsulda kim işləmiş və məharət göstərmişsə, bu gün bu elm hövzəsinin dərs, mövzu və kitablarında təmsil olunur.

### *Problem və çatışmazlıqlar*

### *Bərpada uğurlu və çiçəklənməyə ehtiyaclı hövzə*

Keçmişi, kökü, şəcərəsi və elmi əsil-nəsəbi bundan ibarət olan hövzə indi hansı vəziyyətdədir? Biz bu haqda həmişə düşünməliyik. Doğrudan da İslam və müsəlmanların taleyi ilə maraqlanan şəxs bu haqda düşünməlidir. Bu, kənara qoyub "bununla nə işimiz var?" deyiləsi məsələlərdən deyil. Xeyr! Həm siz alim və tələbələr özünüz, həm bu böyük dünyanın hər hansı bir tərəfində özünü buraya borclu bilən hər bir tələbə, həm də bu hövzənin faydalarından istifadə etmiş, yaxud etmək isətəyən hər bir müsəlman bu barədə fikirləşməlidir.

Düzdür, ruhani olmayan bu məsələ üzərində düşünsə, bir yol tapmayacaq. Eləcə də, həqiqətən sanballı iş gərək bu hövzənin özündə

görülsün. Böyük, əsaslı, köklü və uğurlu iş sizin bu hövzədə görəcəyiniz işdir. Ola bilsin hövzə xaricində mənim kimi bəzi tərəfdarlarınız da olsun. Bunlar sizə dayaq olmalı və kömək etməlidirlər, işi isə hövzənin özü görməlidir. Ona görə biz söhbətin əvvəlindən buraya qədər və buradan sonra həmişə hövzənin özü vasitəsi ilə bərpa edilməsi və qurulması üzərində təkid göstəririk. Bayırda başqa bir kəs bu işi görə bilməz.

Bu gün hövzə necədir? Sabah necə olacaq? Yaxud necə olmalıdır? Bu gün hövzə keçmişə nisbətən çox inkişaf etmişdir. Heç kəs bu həqiqəti inkar edə bilməz. Yəni bu, keçmişlə müqayisəolunası deyil. Həzrət Ayətullah Meşkini də buyurdu ki, hövzə kəmiyyət və keyfiyyət baxımından irəliləmişdir. O zamn dord yüz tələbə vardı, bu gün isə minlərlə tələbə təhsil alır. Bugünkü tələbələr ogünkü tələbələrdən az həvəsli deyillər. Bugünkü tələbə və alimlərin gördüyü bəzi işlər ogünkü tələbə və alimlərin işlərindən on dəfə artıq elmi və bəzən əməli əhəmiyyətə malikdir.

Heç kim deyə bilməz ki, hövzə geriləmişdir. Xeyr, bu baxımdan araşdırdıqda görürük ki, inkişaf etmişdir. Keçmişdəki alimlərin sözləri də bugünkü alimlərin ixtiyarındadır. Bu gün sizin oxuduğunuz Məkasib kitabı şeyxin ali ixtisas (xaric) dərsidir. Şeyxin ən yüksək araşdırmaları bunlardır. Sizin oxuduğunuz Kifayə Mühəqqiq Xorasaninin üsul elmində ən son fikirləridir. Bu gün bizim Kifayə oxuyan tələbəmiz onu başa düşürsə, axundun ozamankı böyük şagirdləri kimi anlamış olur. Lakin bilmək lazımdır ki, bu gün bu, son pillə deyil, o zaman isə son pillə idi. Buna əsasən, hövzə fiqh və üsulda, hövzənin kəmiyyət işlərində, təbliğatda, genişlənməkdə, dünyanın digər yerlərinə yayılmaqda və öhdəsinə götürdüyü məsuliyyətlərdə keçmişlə çox fərqlənir və çox inkişaf etmişdir.

Lakin başqa bir baxışdan, hövzədə iki əsas nöqsan mövcuddur. Qətiyyətlə deyə bilərik ki, onların biri keçmişdə olmamışdır və bu günə məxsusdur. Digəri də böyük ehtimalla belədir.

### *Zamandan öndə olmaq - dünənki hövzənin xüsusiyyəti*

Bizim hövzəmizdə dünən olmayan və bu gün olan nöqsan budur ki, dünənki hövzə öz dövrünün dünyasından geridə deyildi, hətta irəlidə idi.

Siz görün o zaman bizim alimlərimizin elmdə, fiqh və kəlamda öz dövrlərinin insanları üçün nə qədər əsərləri olub. Keçmişdə yaşamış azsaylı alimlər böyük işlər görmüşlər. Əgər ozamankı Bağdada nisbətən İslam dünyasının uzaq bölgələri olan Nişapurda, Bəlxdə, Həratda, yaxud Tusda yaşayan bir neçə nəfər şiənin fiqhə, yaxud kəlama aid sualları olurdusa, Şeyx Müfid Bağdaddan onlara yol göstərirdi. Yəni Şeyx Müfid öz zamanından geri qalmırdı.

Yaxud Şeyx Tusinin dövründə Əhli-beyt məktəbinin düşməni "sizin kitabınız yoxdur" – deyən kimi Şeyx Tusi özü təklikdə işə başlayır, ən böyük rical kitabını xülasə etdi, özü də ayrıca bir rical və bir də biblioqrafiya kitabı yazdı. Yəni gecikmədən Kəşşinin rical kitabını xülasə etdi, özünün ər-Rical və əl-Fihrist kitabınlarını qələmə aldı.

Hələ "fiqhiniz yoxdur" deyən şəxsin iradı evindən bayıra çıxmamışdı ki, birdən o zamanın səviyyəsinə görə sanballı tədqiqat əsəri olan Məbsut təqdim olundu. Məhəmməd ibn Zəkəriyya Razinin dilindən 3-4 ateist söz çıxırdısa, Seyid Mürtəza Razi cəld onun əleyhinə kitab yazır və sözlərinin cavabsız qalmasına imkan vermirdi. Əgər Əhli-beytin inadkar düşməni olan hansısa alim bir kitab yazıb şiə həqiqətlərini ələ salırdısa, Əbdülcəlil Razi Qəzvini dərhal cavabında ən-Nəqz kitabını yazırdı. Buna əsasən, fiqh və kəlam sahələrində xüsusən şiəyə kim bir söz desəydi, qüdrətlə və elmi dillə cavab verir, rəqib və ya düşmənin sözünü təsirsiz qoyurdu.

Son dövrlərə qədər vəziyyət belə idi. Hindistanda bir nəfər peyda olub şiə əleyhinə, şiəni məzəmmət etmək üçün və guya Əhli-

beytin mədhində "Töhfə İsna əşəriyyə" kitabını yazdı. Seyid Hamid Hüseyn onun cavabında əzəmətli Əbəqat kitabını yazdı. Səhv etməsəm, "Töhfə İsna əşəriyyə" kitabına cavab üçün təxminən on kitab yazılmışdır. Mən hindistanlı şiə alimlərinin kitablarına aid olan bir mündərəcata baxırdım. Əlbəttə, onların arasında birinci dərəcəli alimlər də vardı. Fikrimcə, bu kitabın əleyhinə on və bəlkə də daha artıq kitab yazılmışdır.

Deyilənlərə əsasən, elm hövzələri öz dövrlərindən geri qalmırdılar. Bir nəfər peyda olub bir kitabın əlyazmasında bir söz yazırdı, digəri onu köçürür, başqa birisi oxuyurdu. Bu müddətdə 3-4 nəfər ondan xəbərdar olurdu. Şiə alimi də eyni yolla cavab verirdi. Bəzən daha sərt və daha sürətli olur, daha yaxşı çalışırdı və geri qalmırdı.

Şəhid Əvvəlin (birinci şəhidin) dövrünə qədər Əllamənin və Fəxrül-mühəqqiqinin kitabları kimi fiqh kitablarımız adətən əhli-sünnənin görüşlərini də ehtiva edirdi. Amma ondan sonra şiə kitablarında adətən əhli-sünnənin görüşlərini yazmırdılar. Siz görürsünüz ki, o kitablarda əhli-sünnə fəqihlərinin nəzərləri müxtəlif dəlillərlə cavablandırılmışdır. Təkcə Xilaf kitabına baxmayın, Şeyx Tusi orada təkcə icma dəlilinə söykənmişdir. Əllamənin və digərlərinin, eləcə də şeyxin özünün kitablarının adətən möhkəm və çoxlu dəlilləri var.

### ***Bugünkü hövzənin xüsusiyyəti: dövrdən geri qalmaq***

Bu gün isə elə deyil. Bu gün elm hövzəsi öz dövründən çox geridədir, bir addım, iki addım söhbəti deyil. Sanki ata minmiş iki nəfər yanaşı gedirlər. Birinin atı digərinkindən daha iti qaçır. Atı zəif qaçan sonradan avtomobil əldə edir. Təbii ki, atı iti qaçan adam onun tozuna da çatmaz. Bu gün vəziyyət belədir. Hal-hazırda fiqh, fəlsəfə,

kəlam və hüquq görüşləri dünyanı bürümüşdür. Bizsə özümüzə baxanda görürük ki, zamanla məsafəmiz çoxdur.

Hətta əxlaqda da belədir. Hövzənin indi burada iştirak edən böyük alimlərindən biri bir neçə il bundan öncə İngiltərədə bir kitabxana görmüşdü. Mənə buyurdu ki, bu kitabxananın bir mərtəbəsi son bir neçə ildə qərblilər tərəfindən yazılmış əxlaq kitablarına məxsusdur. Bu bir neçə ildə Qum Elm Hövzəsi nə qədər əxlaq kitabı yazmışdır? Onun mində biri, on mində biri və fikrimcə, bundan da azdır. Bu hələ əxlaqdır və bilirsiniz ki, Qərbin əxlaqla arası yoxdur. Əlbəttə, onların əxlaq kitabları daha çox əxlaq fəlsəfəsi, əxlaqın rəddi, qeyri-mənəvi və maddi əxlaq barədədir.

Meracüs-səadət və Camiüs-səadət kitablarından sonra biz hövzələrimizdə hansı kitabı yazmışıq? Düzdür, son bir neçə ildə elmi bir əsər kimi ortaya qoymağa layiq olan bir neçə əxlaq kitabı yazılmışdır.

Bu məsələ eynilə hüquqda da müşahidə olunur. Siz görün mülki hüquqda, cəza hüququnda, müxtəlif hüquqi mövzularda necə çeşidli tədqiqatlar aparılmışdır. Bu iş həm Qərbdə, həm də şiə olmayan İslam dünyasında baş vermişdir. Biz bu sahələrdə, insafla deməliyik ki, çox geri qalmışıq. Hələ bu bizim ixtisaslı sahəmizdir; hövzələrdə əsas ixtisas fiqhdir.

Görün fəlsəfə, kəlam, yeni kəlam, din fəlsəfəsi, dinşünaslıq və digər sahələrdə nə qədər yazıb və işləyiblər. Bunların hamısı səhv də ola bilər, amma hər halda, cəmiyyətin beyin mühitinin bir hissəsini dolduran elm və düşüncə məhsuludur. Siz hal-hazırda haradasınız? Bunlarla necə mübarizə aparmaq istəyirsiniz? Haradadır Əbdülcəlil Razi Qəzvini ki, bu dövrə uyğun ən-Nəqz kitabını yazsın və bir yox, bu sahələrdə on min kitab yazılsın.

Bu gün dünya sürət dünyasıdır, bütün məfhumlar tez bir zamanda dünyanın bu tərəfindən o tərəfinə ötürülür. İndi dünyanın ən uzaq kitabxanaları beş dəqiqə ərzində Amerika Konqresinin

kitabxanasında olan bir kitabı print edə bilirlər. Mətləb belə ötürülür. Biz dünyadan geridəyik. Nə üçün bunu inkar edirik?! Bu, bu gün bizim hövzəmizdə olan danılmaz eyibdir.

### *Mövcud istedadlardan lazımınca istifadə etməmək*

Güman edirik ki, ikinci eyib də bizə məxsusdur və keçmişdə mövcud olmayıb. O da budur ki, hövzənin mövcud kadr potensialından düzgün istifadə olunmur. İndinin özündə Qum Elm Hövzəsində minlərlə dəyərli istedadlar, elmli tələbələr və yaxş gənclər mövcuddur. Əgər onlara azacıq diqqət ayrılsa, öz yerlərində çalışsalar, onlardan lazımi iş istənilsə, vaxtlarının əlavə işlərə sərf olunmasının qarşısı alınsa, bu boşluğun bir hissəsini aradan qaldıra bilərlər.

Düzdür, bu eyib bizim dövrümüzdə də var idi. Biz hövzədə olanda da həmin eyib mövcud idi. Amma zənnimcə, keçmişdə belə olmamışdır. Misal üçün, Əllamə Hillinin səyyar mədrəsəsi vardı, Ölcaytu Xudabəndə ilə müxtəlif bölgələrə gedir, mədrəsəni və tələbələri də özü ilə aparırdı. Bəzi tarixi hadisələrə əsasən, iddia etmək olar ki, o zaman hövzələr öz kadr potensialından düzgün istifadə etmişlər.

### Ruhaniliyin daxildə və xaricdə kəmiyyət baxımından uyğun inkişaf etməməsi

Hövzənin mövcud eyiblərindən xəbər verən aşkar çatışmazlıqları var. Əvvəl bu çatışmazlıqları təyin edək. Görək onları qəbul edirik, yoxsa yox. Bu çatışmazlıqların biri ruhaniliyin kəmiyyət baxımından münasib inkişaf etməməsidir. Düzdür, indi ruhanilik o zamana nisbətən on dəfə, yaxud yüz dəfə artmışdır. Amma eyni zamanda biz hələ lazımi kəmiyyət inkişafını əldə etməmişik. Yəni ruhani olmayan məscid, universitet, kənd, zavod, hərbi hissə və

müsəlmanları ruhanisiz qalan ölkələr çoxdur. Buna əsasən, bu gün müşahidə etdiyiniz böyük toplum da kəmiyyət baxımından lazımi miqdarda deyil. Bu heç kimin inkar edə bilməyəcəyi aşkar çatışmazlıqdır.

Keçmişdə bəzi böyük şəhərlərdə on müctəhid olurdu. Onların hər biri iki yüz yaxşı şagirdi idarə etməyə qadir idilər. Amma bu gün o şəhərlərdə belə alimlər kimi bir nəfər də yoxdur. Bəzi yerlərdə elm və düşüncə baxımından lazımi bacarığa malik olmayan, yaxud özünü çox da zəhmətə salmayan ruhanilər var. Düzdür, bəziləri də çox yaxşıdırlar. Amma bəzi yerlərdə bu eyib mövcuddur.

### *Elmlərdə məzmun çatışmazlığı*

Hövzənin çatışmazlıqlarından daha birisi onun məzmun nöqsanından ibarət çatışmazlığıdır. Bizim fiqh və kəlamda həll olunmayan məsələlərimiz çoxdur. Din alimi üçün lazımi elm mərkəzlərimiz də çox azdır. Müxtəlif yerlərdə günümüzə uyğun bir din aliminə zəruri olan bilgilərə yiyələnməyən ruhanilərimiz var. Bunu da keyfiyyət baxımından inkişafın azlığı, yəni özünün məzmun çatışmazlığı adı altında qeyd edirik.

### *Nəşriyyat və təbliğat sahəsində çatışmazlıq*

Hövzənin nöqsanlarından daha birisi nəşriyyat və təbliğatda çatışmazlıqdır. Hövzədə yetərincə elmi-mədəni məhsul, o cümlədən kitab, qəzet və jurnal nəşr olunmur. Hövzədən kifayət qədər təbliğatçı göndərilmir. İndi dünyanın müxtəlif yerlərində - Afrikada, Avropada və Asiyada daim bizdən ruhani istəyirlər. Mən 1991-ci ildə sizinlə keçirdiyim belə bir iclasda dedim ki, hansısa bir iş üçün ölkədən xaricə gedən bəzi alimlər qayıtdıqda deyirlər: "Filan yerin tələbələrini gördük. Onların ruhanilərə çox ehtiyacı var. Nə üçün oraya adam

göndərmirsiniz?”. Deyirik yaxşı oldu ki, siz müalicə üçün oraya getdiniz və bu ehtiyacı öz gözünüzlə gördünüz.

Bu gün dünyanın hər yerindən çoxlu dəvət var. Bu çatışmazlıqlar var, bunları inkar etmək olmaz. Bu məsələlər bu böyük hövzə daxilindəki eyiblərdən xəbər verir. Hər halda, gözəlliklərin, elmi potensialın, alim və tədqiqatçıların, görülən yaxşı işlərin yanında belə eyiblər də mövcuddur.

Düzdür, hövzədə bu işlərlə məşğul olan, doğrudan da oturub kitab yazan, imkanları çatdıqda səfər edən, aclıq və yorğunluq çəkən, müharibə zamanı cəbhəyə gedən çoxlu insanlar var. Əgər təbliğat cəbhəsi açılsa, onlar bu cəbhəyə də gedər, xaricə və yaxud kəndə dəvət olunsalar, qəbul edərlər. Belə şəxslərimiz də var. Bunlar fərdi hərəkətlərdir və kifayət etmir. Belə çatışmazlıqlar var. Bu çatışmazlıqlar daxildəki bəzi amillərdən xəbər verir. Onları axtarıb tapmalıyıq.

### *Fiqhin yeni ictimai sahələrə girməməsi*

Birinci amil bizim əsas işimiz olan fiqhin yeni sahələrə girməməsi, yaxud çox az girməsidir. Bu gün çoxlu məsələlər var ki, fiqh onların hökmünü bəlli etməlidir, lakin etməmişdir. Fiqhin bacarığı var, lakin işin gedişi elə olub ki, işgüzar tədqiqatçı alim bu məsələ ilə məşğul olmayıb. Misal üçün, pul məsələsi belədir. Ümumiyyətlə, pul nədir? Fiqhin müxtəlif fəsillərində, misal üçün, zəkatda, diyədə, müzaribədə adları hallanan dirhəm və dinar nədir? Dirhəm və dinar məsələsini araşdırıb aydınlaşdırmaq lazımdır. Bankın pul və əmanət məsələlərindən başqa işlərini borc, özü də riba (sələmçilik) adlandırıb üstündən xətt çəkmək çox asandır. Yeri deyil ki, bir qədər daha artıq dərinliyinə varıb görək ki, doğrudan da borcdur, yoxsa yox?! Biz banka pul qoyur və borc veririk. Bank bizdən

borc alır. Bunu kim qəbul edir? Siz banka əmanət qoyursunuz, ona borc vermirsiniz ki?

Belə məsələlər çoxdur. Böyük inflyasiyalar zamanı pulun dəyəri məsələsi necə həll olur? Əlbəttə, biz hər bir cəmiyyətdə qaçılmaz və inkişafa səbəb olan inflyasiyanı demirik. İnflyasiya olmasa, cəmiyyət statik olar. Biz o yerləri demirik, bu həftədən o biri həftəyə qədər pulun dəyərinin azaldığı, iyirmi, otuz və əlli faizlik, yaxud üç rəqəmli inflyasiyaları nəzərdə tuturuq.

Bu problemlər zamanı pul məsələsi necə həll olur? Pul borcları və bir-birimizdən aldığımız borclar necə həll olur? Əgər altı ay öncə sizdən yüz tümən borc almışıqsa, indi qaytaranda o yüz tümən bu yüz tümənlə fərqlənir. Hər halda, fiqhdə bu məsələnin vəziyyəti aydınlaşdırılmalıdır. Bu işlər üçün elmi əsas düşünmək lazımdır. Düzdür, insan ümumi və mütləq dəlillərlə işini asanlaşdıra bilər, amma bu, düzgün deyil.

Hökumət məsələlərinin çoxu, bizim nəhəng məhkəmə sistemimiz üçün diyə, cəza və digər məsələlər fiqh baxımından həll olunmamış və vəzifələri bəlli edilməmişdir. Əlbəttə, keçmişdəkilərdən heç kimin təqsiri olmamışdır. Çünki məhkəmə, diyə və cəza məsələləri onlar üçün aktual olmayıb. Amma bu gün biz təqsirkarıq. Mərhum Mühəqqiq Ərdəbili cihad fəslində deyir ki, bu mövzuya ehtiyacımız yoxdur. O bizdən daha yaxşı bilir ki, cihad necə olmalıdır. Bu məsələ onlar üçün aktual olmayıb, amma yenə də iltifat göstərib cihad barədə bir neçə səhifə yazıb. Bu gün cihad bizim üçün aktualdır. Elə bu cihad məsələsinin özü bizim fiqhimizdə aydın deyil. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək məsələlərinin çoxu, hökumət məsələləri, xalqın həyatına aid olan çoxlu məsələlər, bədən üzvlərinin köçürülməsi və meyiti yarma elə məsələlərdir ki, fiqh bu sahələrdə işləməlidir. Bunların tez və ötəri araşdırma ilə həll olunacağını düşünmək olmaz. Xeyr, bunlar da fiqhin digər fəsilləri kimidir.

Siz görün bizim fəqihlərimiz ibadət, təharət və namaz bölmələrinə nə qədər diqqət ayırmışlar. Bu onların elmi dəqiqliyindən irəli gəlir, eyib də deyil. Soruşurlar ki, onlar nə üçün bu qədər diqqət ayırmışlar. Cavab budur ki, dəqiq və dərin elm öz işini görür. Lakin ola bilsin bu günün prioriteti keçmişlə fərqlənsin. Bu gün başqa məsələlər prioritetdir, beyinlər dəqiqliklə işləməli, o məsələləri ümumi mövzulara gətirməlidir.

### *Fiqhin tədqiqat metodlarında yeniliyin zəruriliyi*

Yeniliyin olmaması - fiqhin fəqahət məsələsi, öz metodikası ilə məşğul olmamasıdır. Fəqahət bizim fiqh adlandırdığımız elmin tədqiqat metodikasıdır. Bu dərsi oxumayınca, kitab və sünnəyə əsasən tədqiqat aparmağın yollarını öyrənməzsiniz. Fəqahət - fiqhin tədqiqat metodikasıdır.

Bunun özünün də inkişafa ehtiyacı var. Bu, kamil bir şey deyil, təkamüldə olan bir şeydir. İddia etmək olmaz ki, biz bu gün fəqahətdə zirvəyə çatmışıq, daha bundan yaxşısı ola bilməz. Xeyr, haradan bəllidir? O qədər böyük alim olmuş Şeyx Tusinin fəqahəti vardı. Onun bir məsələyə dair fətvalarına baxın. Bu gün hansı müctəhid elə araşdırmağa hazırdır? O fətvalar sadə və bəsitdir. Bugünkü müctəhid heç zaman elə araşdırmağa razı olmaz.

Fəqahət müxtəlif dövrlərdə kamilləşmişdir. İnsan fəqahət tarixinə baxdıqda bəzi dövrləri görür. Əlbəttə, fikirlər müxtəlifdir. Mənim fikrim budur ki, şeyxin dövrü bir dövrdür, Əllamənin dövrü başqa bir dövrdür. Ona əllamə (müxtəlif elmlərdə mütəxəssis) deyirik, mühəqqiq (tədqiqatçı) demirik, halbuki bunlar bir şeydir. Ona görə ki, əllamənin işində fiqhi-elmi araşdırma və əsaslandırma daha çoxdur. İnsan onun mövzu ilə necə davrandığını daha yaxşı anlaya bilir. Lakin mühəqqiqdə daha aydın anlamaq olmur.

Sonra təxminən 250 illik bir dövr keçir. Mühəqqiq Kərəkinin zamanı yenə başqa bir dövrdür. İnsan aydın şəkildə görür ki, Mühəqqiq Kərəkinin fiqhi tədqiqat metodu Əllamənin metodu ilə fərqlənir. Eyni fəqahətdir, lakin kamilləşmişdir.

Sonra Vəhid Bəhbəhaninin şagirdlərinin zamanı olan sonrakı dövrə çatırıq. Bu dövr üsul metodologiyasının çiçəkləndiyi dövrdür. Riyaz sahibi, Qəvanin sahibi, Şeyx Cəfər Kaşiful-ğita, Seyid Bəhrül-ülum və digərləri bu dövrə aiddirlər. Sonra Şeyx Ənsarinin və Cəvahir sahibinin dövrü gəlir. Bu dövrdə fiqh metodlarının yenilənməsi Cəvahir sahibinin tədqiqatlarına nisbətən şeyxin tədqiqatlarında daha aşkar görünür; baxmayaraq ki, Cəvahir sahibinin tədqiqatları da yenidir. Şeyx Ənsaridən sonra bir dövrün adını çəkib fiqh metodologiyasında yenilik yarandığını söyləmək istəsək, mənim qüsurlu gümanıma əsasən, o dövr mərhum Ayətullah Bürucerdinin dövrü olmalıdır. O, metodologiya işində yeni mərhələ açdı. Hansı dəlilə əsasən bizim alimlərimiz və böyük tədqiqatçılarımız bu metodlara əlavə edib onu kamilləşdirə bilməzlər?! Ola bilsin bu, bəzi məsələləri də əhatə etsin və nəticələrin çoxu dəyişilsin. Metodların çoxu dəyişildikdə məsələlərin cavabları da dəyişiləcək və fiqh başqa cür olacaq. Bu, vacib işlərdəndir.

Bugünkü tədqiqatçı, misal üçün, Şeyx Ənsarinin işlədiyi sahələrlə kifayətlənməməlidir. Həmin dərin sahədə daha dərinliyə getməməlidir. Bu, kifayət etmir. Tədqiqatçı yeni üfuqlər kəşf etməlidir. Bu iş keçmişdə də olmuşdur. Misal üçün, Şeyx Ənsari iki dəlil arasındakı əlaqədə hakimlik məsələsini kəşf etmiş, sonra digərləri onu dərinləşdirmiş və inkişaf etdirmişlər.

Fiqhin metodlarında yeni üfüqlər açmaq lazımdır. Hansı dəlilə görə bizim böyüklərimiz, fəqih və tədqiqatçılarımız bu işi görə bilməməlidirlər?! Doğrudan da bu dövrün və bizim dövrümüzə yaxın alimlərin bəzisi elmi qüvvə və dəqiqlik baxımından həmin sələflərdən geri qalmırlar. Lakin hövzədə bu iradə hərəkətə gətirilməlidir. Bu

cəsarət peyda olmalı və hövzə bunu qəbul etməlidir. Əlbəttə, kim nə desə, hövzə də qəbul etməməli, eyni zamanda məqbul çərçivələrdə deyilmiş yeni söz rədd edilməməlidir.

### *Kəlam elmində çatışmazlıq*

İkinci eyib kəlam elminin yetərli və lazımi inkişaf etməməsidir. Bu, doğrudan da faciədir. Bundan da üstünü və daha acı olanı kəlamın unudulmasıdır. İslam və Əhli-beyt elm hövzəsi birinci növbədə kəlam və sonra fiqh hövzəsi olmuşdur. Bizim böyük fəqihlərimiz həm də kəlam alimləri olmuşlar. İndi isə baxın, bizim hövzələrimizdə kəlam sıradan çıxmışdır. Halbuki bu gün ən çox hücum kəlam mövzularındadır.

Qeyd etdiyim kimi, biz keçmişdə geri deyildik. Kim bir söz desəydi, tez cavabı hazır idi. Amma bu gün dünyada çoxlu kəlam məsələləri ortaya qoyulur, elm hövzəsinin isə xəbəri belə olmur.

Bilirsinizmi bu gün dünyada dinşünaslıq və din fəlsəfəsi nə qədər aktualdır, kimlər yazır, danışır, tədqiqat aparırlar və bizim xəbərimiz olmur?! Bu, böyük nöqsandır. Düzdür, hövzəyə mənsub olan bəzi şəxslər dəyərli işlər görüblər və görürlər. Lakin bu iş hövzədə sistemli şəkildə görülmür. Ayrı-ayrı şəxslərin işləri sistemin işindən başqa bir şeydir. Hövzə sistemi cavab verməlidir. İndi bir nəfər peyda olub bir sahəyə girişsə, işləsə, nəticə təqdim etsə, onu hövzənin hesabına yazmaq olmaz. İnsafla deməliyik ki, hövzə bu sahədə işləmir.

Kəlam sahəsində işdən söhbət gedirsə, tez 3-4 etiqadi kitabın yazılmasını təsəvvür etməyin. Hövzənin işi daha çox nəşr etdirmək deyil, təkamüldə olan düşüncə istehsal etməkdir. İstehsal artsa, növbə nəşrə də çatacaq. Nəşr ikinci məsələdir. Belə güman etməməliyik ki, filan mövzuda on kitab yazdıq, məsələ bitdi. Xeyr, hövzə kəlamda yeni fikirlər istehsal etməlidir. Mənim əzizlərim! Köhnə şübhələr

keçmişdə qaldı, bu gün yeni və təhlükəli şübhələr mövcuddur. Bu gün heç kim İbn Kəmmunənin şübhəsini irəli sürmür. Bu gün bütün kəlam sahələrində böyük şübhələr mövcuddur. Tövhiddən və dinin lazımlığından tutmuş Yaradanın varlığına, ümumi və xüsusi nübüvvətlərə, sonra vilayət məsələsinə, din və İslam sahələrində mövcud olan müxtəlif məsələlərə qədər hamısı aktualdır. Bu gün bunların hamısına dair şübhə mövcuddur. Bu şübhələrə kim cavab verməlidir?! Məgər alimlər əqidə sərhədçiləri deyillər?! Əqidə sərhədlərinin müdafiəçisi yoxdur və başlı-başına buraxılıb?! Bu hücumlar qarşısında müdafiəsiz qalmış Ali-Məhəmməd (s) yetimlərinə görə Allahın cavabını kim verəcək?!

Nəticə belə olur: Bizim cəmiyyətimizdə bir nəfər cəsarət tapıb uca səslə bir şübhəni dedikdə, birdən-birə on nəfər qalxıb qəzəblənmədən şübhəyə cavab vermək əvəzinə, əsəbiləşirik, dava-dalaş salırıq; halbuki əlimiz dolu olsa, nə üçün dava etməliyik? Bir nəfər bir məqalə yazıb məntiqsiz və dəlilsiz bir söz deyir, yaxud yanlış və çaşdırıcı dəlillərlə qarşıya çıxır – ilan yazmaq yerinə ilanın şəklini çəkən məşhur məsəl kimi – o zaman Qum Elm Hövzəsində dərhal on, iyirmi, yaxud yüz məqalə çap olunur, hər bir qəzetdə və jurnalda cavabı verilir, məsələ bitir və heç kimin əsəbiləşməsinə ehtiyac qalmır. Nə üçün əsəbiləşməliyik? Heyf deyil ki, İslam hövzəsini, bu məntiqli və dəlilli dini dəlilsiz olmaqda, dava-dalaş salmaqda ittiham etsinlər?! Üstünə bir yalan da qoyub desinlər ki, siz təkfirçisiniz?! Biz kimi təkfir etdik?! Biz nə qədər kafiri təkfir etmişik?! O qədər kafir var ki, biz heç birini təkfir etməmişik. Bu gün hövzə heç kimi təkfir etmir.

Deməli, birinci eyib fiqhə aid idi. İkinci eyib isə mənim fikrimcə, birinci eyibdən pisdir və doğrudan da böyük dərddir. Bu, kəlama aiddir. Tez onun imdadına çatmaq lazımdır.

***Təbliğat məsələsinə yenidən baxmaq***

Üçüncü eyib təbliğat işində olan çatışmazlıqdır. Təbliğat sahəsində hövzənin əsaslı bir eybi var. O da budur ki, təbliğat hövzədən ayrılmışdır. Düzdür, yay fəslində, yaxud məhərrəm və ramazan aylarında elm hövzəsindən kimlərsə bəzi məqsəd və ehtiyaclar əsasında təbliğata getməyə məcbur olurlar. Hövzənin təbliğatı və ona aid dərsi isə yoxdur. Təbliğat da bir sənət və məharətdir, bir elm ola bilər, elmdir və tədris olunmalıdır. Biri yaxşı, biri pis alınır. Biri bir söz danışmaq istəyir, o birisi onun əksini danışır. Belə hal çox zaman yaranır, düzgün təbliğat üsullarını bilməmək səbəbindən bir nəfər elə bir söz deyir ki, niyyyətində olanın əksi başa düşülür, özü də anlamır. Yaxud misal üçün, gedib təbliğ edir, amma təbliğat psixologiyasını bilmir, xalqa uyğun olmayan sözü danışır. Universitetə lazım olan sözü kənddə danışır, kəndə lazım olanı zavodda. Hövzədə təbliğat dərsi keçirilmir, təbliğata dair elmi metodlar araşdırılmır və lazımi elmlər, misal üçün, ictimai psixologiya öyrədilmir. Orada təbliğat nümunələri hazırlamaq, məsələn, müxtəlif dinləyicilərə uyğun mətləbləri ayırıb müəyyənləşdirmək işi görülmür. Məsələn, filan ölkəyə getmək istəyirsinizsə, bu söz lazımdır, başqa bir ölkə üçün isə bu söz faydalı deyil və işə yaramır. Ölkə daxilində və kənddə bir cürdür, böyük şəhərdə başqa cür, Tehranda, universitetdə və tələbələr arasında başqa cür, qadın hövzəsində tam başqa cür. Hövzədə bu təsnifatlar aparılmamışdır. Müxtəlif səsli və görüntülü təbliğat məhsulları da buradan yayılmalıdır.

Mən deyilən hər bir məsələni əcnəbilərlə müqayisə edən və özümüzünkülərin başından vuran adamlardan deyiləm. Bunu bilin. Mən öz cəmiyyətimizdə olanlarla fəxr edən adamam, digərlərinin inkişaf etdiyini düşünmürəm. Amma bəzi məsələlərlə dünyada necə rəftar olunduğunu görməmək olmur.

Kilsə din elmi baxımından sıfırdır. Düzdür, keşişlər arasında professorlar və müxtəlif fənlər, misal üçün, biologiya və botanika təhsili almış adamlar var. Bu elmlər ruhaniliklə bağlı deyil, amma hər halda, bəzi məsihi ruhanilər bunları öyrənmişlər. Tanınmış kəşf sahibləri arasında da bəzi keşişlər var, məsələn, riyaziyyat və tarix oxuyublar. Lakin kilsə yazılı, dərin və əsaslandırılmış din elminə malik deyil, təbliğat baxımından isə öndədirlər.

Onlar çoxlu filmlər hazırlayıblar. Zahiri belə göstərmir, amma əslində məsihiliyi təbliğ edirlər. Hətta bizim televiziyada çalışan dostlarımız milad bayramı günlərində bəzi həmvətənlərimizin məsihi olduğunu nəzərə alıb lütfkarlıq üzündən bir neçə məsihi və kilsə filmi nümayiş etdirirlər. Mən baxıb gördüm ki, bunların əksəriyyəti kilsənin təbliğatıdır. Filmi yayan başa düşmür, amma tamaşaçıda təsir buraxır. Hansısa işi görən bir keşişi nurlu simada göstərir. Düzdür, hər cür keşiş var, mən bunu bilirəm; həm yaxşı keşiş var, həm pis keşiş. Amma məqsədim təbliğatdır. Bizdə bu yoxdur.

Bu işlər birgecəyə görüləsi işlər deyil. Əgər bu gün bu işlərə başlayıb audio və video, xüsusən də videomateriallar istehsal etsəniz, bəlkə on ildən sonra hövzə üçün bu imkan yaranar. Hələlik isə bizdə bu yoxdur, incəsənətdən istifadə etmirik, kitab, məqalə və jurnalımız yoxdur. O məsələlər yeni, modern və imkanımız çatmayan məsələlər idi, amma kitab və məqalə imkanımız daxilindədir. Bizdə bunlar da yoxdur. Hövzənin bir hövzə kimi din təbliğatı üçün kitabı, mətbuatı və jurnalı da yoxdur. Təbliğat işində çatışmazlıqlar var. Hövzədə təbliğat işi ilə quruluşa aid bir iş kimi məşğul olmurlar.

Hövzə barədə deyiləsi söz çoxdur. Amma son hissəyə, yəni bu çatışmazlıqların həllinə keçirəm. Mənim əzizlərim! Bu gün bu problemlərin həlli mümkündür. Ola bilsin dünən mümkün olmayıb və Allah eləməsin, sabah da mümkün olmaya bilər. Dörd il öncə burada dedim ki, gənclikdə biz bu fikirləri yeni öyrənmiş, hövzələrə aid olan yeni fikirlərlə tanış olmuşduq. Lakin yeni layihələri icra

etmək üçün münasib mövqeyimiz yox idi. O zamanlar da bu fikirlər vardı, yeni sözlər deyil. Mühüm dərdlərin biri budur ki, illərdir maraqlar var, amma o maraqlara uyğun olan az işlər görülmüşdür.

Birinci adam mərhum Ayətullah Bürucerdi idi. Hövzənin ozamankı gənc və aktiv tələbələri olan imam, mərhum Ayətullah Mühəqqiq Damad və mərhum Ayətullah Hacı ağa Mürtəza Hairi həmin hisslərlə cənab Bürucerdinin ətrafını tutdular. Amma sonra bəzi səbəblərdən bacarmadılar və vəziyyətlə barışdılar. O zaman bu fikirlər olmuşdur. Mərhum Ayətullah Əmini mənə deyirdi ki, ağa Seyid Əbülhəsənin dövründə Nəcəfdə də bu fikirlər olmuşdur. Mərhum Ayətullah Xoyi və digər ağalar bu sözləri danışan ozamankı fəal gənclər idilər.

Deyə bildiyimiz budur ki, o zaman bunlar bir iş görə bilmirdilər. Çünki zalım hökumət iş başında olub, əlimizdə pul və imkan olmayıb, işləməyə icazə verməyiblər və işləmək istəyən ruhanilərin ağzından vurublar. Hövzənin böyük alimləri də qorxublar ki, bütün hövzə əldən çıxar. Kimlərsə "gəlin düzəldin" deyiblərsə, cavab veriblər ki, bütün hövzə təhlükədədir, hakimiyyətdə olan zalımlar hövzəni udarlar. Bu gün isə bu problemlər yoxdur.

### *Hövzələrin dövlət müəssisəsi olmasına qarşı çıxmaq*

Bunu da deyim ki, bu gün biz bir kəlmə danışan kimi bədxahlar deyirlər ki, bunlar hövzəni dövlət müəssisəsi etmək istəyirlər. Mən bu iddianı qətiyyətlə rədd edirəm. Əlbəttə, dövlət İslam dövlətidir. Hökumətin başçısı da bu hövzənin tələbəsi və bir din alimidir. Bizim prezidentimiz bu hövzədəndir, özgə deyil. Amma yenə düşünmürəm ki, hövzə başqa bir təşkilata bağlı olmalıdır. Bu düşüncə indiyə aid deyil. İnqilabdan öncədən və daha çox inqilabdan sonra bu məsələ qoyulurdu ki, dövlət İslam dövləti olsa, hövzə yenə də müstəqil bir təşkilat olmalıdır, yoxsa yox? Mən güclü dəlillərə əsaslanaraq

hövzənin müstəqil olmasını vacib sayanlardan idim. İndi də həmin fikirdəyəm, kimdənsə təqiyyə etmir, çəkinmirəm.

Hər bir islahatçı söz qarşısında şübhə yaradan şəxsin ağzından vurun. Düşmən hər bir məsələni qəti və aydın şəkildə öz xeyrinə həll edir. Bəlkə də ağrılı ürəkdən çıxan hər bir islahat fəryadına və dərdli sözə dərhal bir şey yapışdırırlar. Amma bu, çıxış yolu deyil. Bunun çıxış yolu var, bu gün buna əlac etmək olar. Bu gün hövzəyə inanan, arxalanan, onun qədrini bilən və ona dayaq olan ilahi və islamçı bir hökumətimiz var. Mən bu sahədə hər bir yaxşı hərəkəti müdafiə etməyə hazıram. Bu gün əlac günüdür. Əlac etməliyik. Əgər etməsək, Allah-Taala bizi cəzalandırar. Mənim fikrim budur. İndi isə bu məsələlərin əlacı kimi düşündüklərimi yalnız sadalamaq istəyirəm.

## *Çıxış yolları*

### *Hövzənin nöqsanlarını qəbul etmək*

Birinci iş dərdi qəbul etməkdir. Kimlərsə deməsinlər ki, bu sözlər nədir, Şeyx Ənsari, Mirzə Naini, axund, imam və digər böyüklər bu hövzələrdə yetişiblər, siz yeni söz danışırsınız. Dərdi qəbul etməsək, dərmanı mümkün olmaz. Bu iş sizin, xüsusən də gənc alimlərin əlindədir. Deyin, təkrarlayın, yazın, əsaslandırın, qəbul etməyənlərlə mübahisə edin və sübuta yetirin ki, bu xəstə doğrudan da xəstədir və bu canlının ağrısı var. Əgər ağrını anlamasalar, bu xəstə müalicə olunmayacaq.

### *Təhlükələri tanımaq üçün iradələri səfərbər etmək*

İkinci iş müalicəyə başlamaqdır. Deməsinlər ki, bəli, ağrı var, amma nə etmək olar. Təxminən otuz il öncə Allahın rəhmətinə getmiş və mənim ürəkdən hörmət bəslədiyim hövzə böyüklərindən biri bir məsələ barədə buyurdu: "Bəli, bir günah (yaxud böyük bir cinayət)

baş verib, lakin indi nə edə bilərik?!" Bu, baxıb problemi görmək, amma onu müalicə etməyə iradə göstərməməkdir. Yolu budur ki, insanlar, xüsusən dərdi duyan gənclər o dərdi yaysınlar, digərlərinə xəbər versinlər. Hövzənin nüfuzlu və işgüzar şəxsləri ilə bir araya qoysunlar, onları vadar etsinlər və iş görülsün.

### *Gənclərdə işləmək hissinin oyadılması*

Üçüncü məsələ hövzə gəncində işləmək hissinin oyanmasıdır. Gənc dedikdə məqsədimiz bu deyil ki, yoldan keçən hər bir xam gənc dərdə əlac edəcək. Mənim nəzərdə tutduğum indi Allahın lütfü ilə hövzədə böyük bir təbəqəni təşkil edən, yaşı qırx civarında olan, Kifayə, Məkasib və ali ixtisas dərslərini tədris edən, illərdir fiqh və üsul dərslərində iştirak edən və başqa mövzularda işləyən gənc alimlərdir. Bunlarda işləmək hissi canlandırılmalıdır. Mənim dinləyicilərim onlarda işləmək hissini dirçəltməlidirlər. Əgər dirçəltməsələr, bunların özü hərəkət edib çalışmalı və iradə ilə işə girişməlidirlər.

### *Koordinasiya və idarəçilik*

Dördüncü iş budur ki, müəyyən bir mərkəz bu işləri öhdəsinə götürsün. Dörd il öncə bizim söhbətimiz bu mərkəzi təsis etmək barədə idi. Allaha şükür olsun ki, bu gün bu baş vermişdir. Bu gün hövzənin bir Ali Şurası və bir rəhbəri var. Mən burada fürsətdən istifadə edib hövzə rəhbərliyi vəzifəsində çəkdiyi bir neçə illik zəhmətlərinə görə cənab Möminiyə təşəkkür edirəm. Həmçinin bizim əzizimiz olan, doğrudan da səmimi-qəlbdən hörmət bəslədiyim və bu mühüm məsuliyyəti üzərinə götürən cənab Ustadiyə xoşgəldin deyirəm. Hövzə bu hərəkətlərin mərkəzi olmalıdır.

Hövzənin rəhbərliyi iki növ iş görə bilər: Biri qanuni və əsasnamədə göstərilən işlərdir; misal üçün, imtahanlar, qəbul

imtahanı, təqaüd və sair. Biri də bəlkə də əsasnamə və nizamnamədə göstərilməyən, lakin könüllü cihad hərəkəti və müxtəlif şəxslərdən istifadə edib işlər başlatmaqdan ibarət olan böyük və əzəmətli hərəkətdir. Hər halda, bir mərkəz birbaşa və konkret formada bunlarla məşğul olmalıdır. Mənim fikrimcə, bu gün bu mərkəz hövzənin rəhbərliyidir.

### *Əqli və nəqli elmlərdə açıq mühitin yaradılması*

Beşinci iş düşüncələrin inkişafı üçün şəraitlərin yaradılmasıdır. Bu iş hövzəni canlandıran və yaxşı nəticələr bəxş edən vacib işlərdəndir. Fiqh, kəlam və əqli elmlər üçün elmi birliklər təşkil olunmalıdır. Məsələn, yeni fiqh mövzularının araşdırılması üçün yeddi, səkkiz, on savadlı tələbədən ibarət bir elmi birlik yaradılsın. Bunların bir mərkəzi olsun, iclaslar təşkil olunsun, fiqh mövzusunda çıxışlar etsinlər. Təharət fəslindən diyə fəslinə qədər fiqhin hər hansı kiçik və ya böyük məsələsində kimin yeni bir sözü, mətləbi və fikri olsa, oraya gətirsin, onlar baxsınlar. Əgər sözün özünün yox, əsaslarının düzgün olduğunu, tələbə dəlillərinə və araşdırmalarına söykəndiyini və alim şəkildə ortaya qoyulduğunu görsələr, qeyd etsinlər, növbəyə salsınlar, həmin şəxs bir gün gəlib auditoriya qarşısında çıxış etsin,  məsələni azad şəkildə açıqlasın və bəziləri də orada iradlarını bildirsinlər.

Ola bilsin o məclisdə iştirak edənlər o şəxsin özündən daha elmli olsunlar, heç bir eybi yoxdur. Bir məsələ müzakirə olunduqda bu fikir yayılır. Belə olmasın ki, bir nəfər fiqhdə yeni bir fikir və fətva irəli sürən kimi, hətta yanlış, səhv də olsa, bizim birinci rəftarımız inkar olsun və deyək ki, baxın, görün filankəs filan məsələdə necə dəyərsiz fətva vermişdir. Hər halda, bir fiqhi baxış müzakirəyə çıxarılmalı, yeni düşüncələrə şərait yaradılmalıdır. Əlbəttə, bu iş

gərək qanun-qaydalı və intizamlı olsun, hər bir kəs gəlib özü üçün bir söz danışmasın.

Kəlam üçün də buna bənzər bir birlik olsun, orada kəlam düşüncələri və sözləri deyilsin. Tələbələr bir-birlərini xəbərdar etsinlər. Sözlərin hövzədə deyilməsi mümkün olmalı, yeni sözü olanlar gəlib deməlidirlər. Bəzən bir şəxs bir fiqhi məsələni kimdənsə eşidir, öyrənir və sonra yaxşı bir nəticə çıxarır. Deyilən sözün ümumiyyətlə, səhv və əlaqəsiz olması mümkündür, amma orada oturan şəxs yeni nəticə dərk edə bilər. Yeni fikirlər irəli sürmək üçün şərait yaranmalıdır. Əqli elmlərdə də belədir.

### *Dərs vəsaitində əsaslı dəyişiklik etmək*

Altıncı məsələ dərs vəsaitində ciddi dəyişiklik barədədir. Buna ciddi yanaşmaq lazımdır. Dərs kitabları dəyişilməlidir. Dəyişikliyinkdə meyar tələbənin vaxtına qənaət olmalıdır. Bizim tələbəmiz Müğni kitabını oxuyur. Halbuki Müğnidə olan mətləbin lazımi miqdarı müasir bir yazıçının çox yaxşı dillə yazdığı daha kiçik bir kitabda mövcuddur. Nə lüzumu var ki, biz mütləq İbn Hişamın yazdığını oxuyaq?! Bunun hansı özəlliyi var?! Müğni ərəb qrammatikasının sintaksisi barədə ali ixtisas dərsliyidir. Görürsünüz ki, dəlil göstərir: "və" sözü filan məna üçün işlənir, yoxsa yox; filankəs deyib ki, işlənir, dəlili budur, filankəs də ona cavab vermişdir. Bu, ali ixtisas dərsidir. Məgər biz ərəb dilinin sintaksisinin ali ixtisas dərsini keçmək istəyirik? Biz bilmək istəyirik ki, "və" sözü hansı mənada işlədilir və bunu həmin sadə kitabda yazıblar.

Biz nə üçün əbəs yerə Müğni, yaxud Mütəvvəl kitabına bu qədər vaxt tələf etməliyik?! Mütəvvəldə öyrədiləni Mütəvvəlin təxminən onda biri qədər olan bir kitabda oxuyun. Nə lüzumu var ki, biz bir neçə əsr bundan öncəyə aid olan və üsul elminin birinci kitabı

əsasında yazılmış Məalim kitabını oxuyaq?! Bu kitablar nə qədər yaxşı olsa da, mətnləri çətindir. Nə üçün tələbəni mətnlə gecikdirməliyik?!

Bu gün dünyada ən çətin məsələləri ən sadə dillə bəyan etməyə çalışırlar. Qısa işarələrlə, bir sözlə dinləyiciyə on məna çatdırmağa çalışırlar. Biz isə bir məsələni izah etmək üçün çətin ifadə seçirik. Məalimi yazan mərhum alimin çətin ifadələrlə bəyan etdiklərini başqa birisi ondan dörd yüz il sonra daha kiçik və daha yeni bir üsul kitabında yazmış, Məalimin bütün lazımlı məsələlərini sadə dillə bəyan etmişdir. Bu ondan yaxşı deyil?! Kitabları dəyişdirməmək düşüncəsinin arxasında hansı dəlil dayanır?!

**Fiqhi sadələşdirmək və fiqh elminin əsaslarını öyrənmək üçün fiqh elmi birliyi təsis etmək**

Elm hövzəsinin böyük alimlərinin bir qrupu təharətdən diyəyə qədər bütün fiqhi sadə dillə yazmalı və Şərhi-Lümə kitabı kimi fiqhi araşdırmanın yolunu göstərməlidirlər. Şərhi-Lümə kitabı nisbətən çətin kitabdır. Biz nə üçün çətin mətnlə tələbəni gecikdirməliyik? Digər dərs kitabları da belədir. Bu kitablar səmadan enməmişdir. Bir zaman başqa dərs kitablar vardı. Məgər Riyaz pis kitab idi? Deyirlər ki, şeyxin Məkasib kitabı çox yaxşı kitabdır. Əlbəttə ki, yaxşı kitabdır. Amma məgər Riyaz pis kitab idi? Bir zaman elm hövzəsində Riyaz oxuyurdular; bizim dövrümüzdə yox, bizim atalarımızın dövründə. Hövzədə tədris olunan adi kitablardan biri də ikicildlik Riyaz idi. İndi də Riyaz oxuyaq?! Onlar Qəvanin və Füsul oxuyurdular, amma indi oxumurlar, köhnəlmişdir. Bunda hansı eyib var?!

Bir qrup oturub sizin Məkasibdə öyrətmək istədiyiniz mövzuların dəlillərini çıxarsın, onun kimi çətin olmayan bir kitab hazırlasın və sonra həmin kitab hövzələrdə tədris olunsun. Biz elə etmək istəyirik ki, tələbə ali ixtisas dərsinə çatdıqda - bu, ciddi işin başlanğıcı, digər dərslər isə bu dərsə girişdir - müəllim bir söz dedikdə, bir işarə etdikdə çaş-baş qalmasın, metodları bilsin, üsul

kitabını oxumuş olsun, fiqhi bilsin, elmi əsaslandırmalarla tanış olsun, şeyxin və axundun elmi əsaslarını bilsin.

### *Hazırlıq və orta pillənin beş ilə endirilməsi*

Bu, hazırlıq və orta pilləni oxuyan bir tələbənin məqsədidir. Əgər bunların hamısını dörd il ərzində oxuya bilsə, məgər pisdir?! Tələbəni tam orta təhsildən sonra qəbul edək, hazırlıq, ərəb dili və orta pillə dərslərini beş ilə oxusun, sonra ali ixtisas dərslərinə başlasın və əsas işə girişsin. Biz zamanı qısaltsaq, bu müddətdə başqa şeylər də öyrənər.

Deyirik ki, tələbəyə xarici dil lazımdır, bu gün bir-birinə bu qədər yaxınlaşmış dünyada kimsə tam faydalı olmaq istəyirsə, xarici dil bilməlidir. Deyirlər ki, tələbənin vaxtı yoxdur. Doğru deyirlər, bu vəziyyətlə doğrudan da tələbənin vaxtı olmaz. Amma əgər vaxta qənaət etsək, tələbə xarici dil də öyrənə bilər.

### *Ali ixtisas mərhələsində fiqh və üsulu tətbiqi etmək*

Dərs vəsaitində ciddi dəyişiklik edilməlidir. Çünki yenilik bünövrədən başlanmalıdır. Dərs kitabları üzərində işləmək lazımdır. Fiqhin ali ixtisas dərsində də tətbiqi və praktik mövzular araşdırılmalıdır. Xüsusən fiqh və üsulda bəzi mövzulara doğrudan da ehtiyac yoxdur, amma onlar da oxunur. Halbuki bir fəqih tədqiqat apardığı bütün iyirmi il ərzində belə mövzulara, məsələn, hərflərin mənalarının əsasına, yaxud həqiqi və məcazi mənaya, yaxud digər əsaslara bəlkə bir dəfə də ehtiyac duymur. Nə lüzumu var ki, biz üsul elminin bütün bu lazımsız mövzularında vaxt itirək? Bu sahədə mərhum Şəhid Sədr yaxşı iş görmüşdür. Onun üsul elmində gördüyü iş və bu elmin tədrisi barədə verdiyi təklif yaxşıdır.

### *Müstəqil elmi fənlərin təsis edilməsi*

Yeddinci iş fiqh və kəlam kimi müstəqil fənlər açmaqdır. Fiqh elm hövzəsində əsas fəndir, kəlam da gərək əsas fənn olsun. Deməyin ki, indi bir neçə saat kəlam dərsi də keçirik. Xeyr, tələbə bir mərhələyə qədər oxuduqdan sonra fiqh, yaxud kəlam elmlərində ixtisaslaşmalıdır. Hövzənin əsas fənni kimi kəlamda müctəhidimiz olmalıdır.

### *Xarici dilin icbari təhsili*

Səkkizinci iş xarici dilin hövzənin icbari dərslərinə salınmasıdır. Bu haqda danışdım.

### Tələbələrin elmi səviyyəsinin müəyyən məqsədlər əsasında ayrılması

Doqquzuncu iş məqsədlərə əsasən tələbələrin tədrici bölgüsüdür. Mənə verilən statistikada hövzədə təxminən iyirmi üç, yaxud iyirmi dörd min tələbənin olduğu göstərilir. Əgər bunu meyar götürsək, onların təxminən yeddi-səkkiz min nəfəri böyük alimlər və yüksək elmi rütbələr qazanmış şəxslərdir. Başqa bir hissə də gənclikdə dərsoxuyan olmamış, indi də daha vaxtı olmayanlardır.

Fərz edin Qumda on beş min tələbə təhsil alırsa, qabaqkı qaydaya əsasən, onların təxminən min nəfərini seçirik ki, böyük fəqih və müctəhid kimi yetişsinlər. Əlbəttə, bu iş öz zamanında görülməlidir. Məsələn, iyirmiillik bir dövrü nəzərə alaq. Təbii ki, hər il yeni tələbələr əlavə olunur və bir qrup da çıxır, amma orta hesabla iyirmi ildir. Bu şəxslər fiqh istedadına və həvəsinə malik olan və ondan yayınmaq istəməyən adamlar olmalıdır. Bunları seçib fiqhdə ixtisaslaşdırmaq lazımdır. Bunların arasından böyük fiqh müəllimləri, tədqiqatçılar və təqlid müctəhidləri çıxacaq. Hövzənin iyirmi il ərzində yetişdirməsi üçün isə min fəqih az deyil.

Əgər siz iyirmi, yaxud qırx il öncədən indiyə qədərki dövrə baxsanız, görərsiniz ki, İslam dünyasını elmi fəqahət baxımından təmin edən min böyük və dəyərli fəqih, İslam dünyasının ehtiyaclarını təmin edən min nəfər kəlam müctəhidi az deyil. Həvəsi və marağı olanları tapın. Bunlara xüsusi dərslər keçirilsin. Əgər lazım olsa, ali ixtisas mərhələlərinə keçsinlər, yaxud universitet üçün bursiya ayrılsın.

Növbəti mərhələdə onların arasından min nəfər orta səviyyəli şəhər alimi yetişdirək. Onların arasında müctəhidliyə yaxın və bəzi sahələrdə müctəhid olanlar olacaq. Bunlara lazımi təminat göstərilməlidir. Əlbəttə, bunun da müəyyən bir dövrü olacaq. Mümkündür, misal üçün, iyirmiillik bir müddət lazım olsun. Əgər əvvəlki iki qrup iyirmi il çəkəcəksə, bu qrup az çəkəcək. Onların hamısı proqramla müəyyənləşdirilməlidir.

Beş min nəfər də təbliğatçı, minbər adamı, yazıçı və natiq kimi seçilməlidir. Üç min nəfər də ölkədən xaricdə və dünya səviyyəsində təbliğat məqsədilə seçilməlidir. Bunlar ümumilikdə on beç min nəfər edir. Əlbəttə, bu iş sabah baş verməyəcək. Əgər biz bu gün başlasaq, beş ildən sonra belə bir bölgü aparmağımız mümkündür. Lakin hövzə bunu dərk etməlidir. Hər halda, belə bir iş üçün tələf olan, təxirə düşən hər bir gün gecdir. Bilirəm ki, iş mürəkkəb və çətindir, amma bir-iki nəfər yox, bütün hövzə qərar versə, bu, həyata keçər.

### *Alim, idarəçi və tələbələr - əsas müraciət obyektləri*

Mənim müraciətim üç qrupadır. Onların biri hövzənin böyükləridir. Allaha şükür olsun ki, onların çoxu buradadırlar. Mənim onların çoxuna qədimdən hörmətim var. Onların bəzisi mənim gənc tələbə olduğum zaman bu hövzədə böyük alimlərdən idilər. Onlar həmişə böyük, təqvalı və elmli şəxs kimi tanınmışlar. Bunlar hövzədə nüfuza malik olduqlarından müraciət birinci

onlaradır. İkinci müraciət obyekti hövzənin gənc tələbələridir. Siz də bu sahədə iradə göstərməlisiniz.

Üçüncü müraciət obyekti İdarə Heyəti, hövzənin əziz və möhtərəm rəhbərinin özü və Ali Şurasıdır. Ən çox məsuliyyət yükü bunların öhdəsinə düşür. Bu işin görülməsi üçün elmi birliklər təşkil olunmalıdır.

### *Elmi ixtisas toplantısının keçirilməsinin zəruriliyi*

Mən qabaqkı səfərdə də dedim ki, həll etmək istədiyiniz hər bir məsələ üçün sözün həqiqi mənasında bir seminar keçirin. İki-üç nəfərin çıxış edib getdiyi seminarlardan yox. Bu, seminar deyil, çıxış məclisidir.

Seminar odur ki, əqli diqqətə ehtiyacı olan bir mövzu seçilsin. Nəzər sahibi olan şəxslər fikirləşsinlər, araşdırsınlar, statistikaları çıxarsınlar, sonra gəlib müzakirə aparsınlar və fikirlərini desinlər. Daha sonra seminarın aparıcıları bu fikirləri yekunlaşdırsınlar və yaxşı bir nəticə əldə olunsun.

Əlbəttə, o zaman bir seminar təşkil olundu, nəticələri də Allaha şükür ki, yaxşı idi. Amma sonra davam etdirilmədi. Siz bu iş üçün münasib şəxsləri seçməlisiniz. Üslubları ölçməli və problemin həlli yolunu tapmalısınız. Nəzər sahiblərindən yüz, yaxud əlli nəfəri seçin. Bu işin idarəsini öhdəsinə götürən şəxsləri dəvət edin ki, iki-üç gün bir yerdə oturub fikirləşsinlər, mübahisə və dəlillə araşdırsınlar. Elm hövzəsi dəlil hövzəsidir. Tələbə mübahisəsi edin ki, nəticələrdən istifadə olunsun.

İlahi! Məhəmməd və Ali Məhəmmədə (s) and veririk, Öz razılığın yolunda bizə uğur bəxş et!

İlahi! Bizi bağışla! Bizim niyyətlərimizi ixlaslı et! Bizi öz yanında bu məclisdən çox bəhrələndir!

İlahi! Elm hövzələrini ucalt! Onları həmişə mübarək et və həzrət Mehdinin (ə) nəzərində saxla!

İlahi! Bu xeyir və bərəkətli şəhərdən bizə çoxlu fayda nəsib et!

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

## İKİNCİ FƏSİL:Yeniliyin İdarəsi Böyük rəhbərin baxışında

*Elm hövzəsinin müdir və alimlərilə görüşdə çıxışı*

*(29 noyabr 2007)*

### *Hövzədə islahatçı fikirlərin həyata keçirilməsinin zəruriliyi*

Bu məclis mənim üçün çox şirin və ürəkaçan bir məclis idi. İstər mübarək Qum hövzəsinin, istər Məşhəd və İsfahan kimi digər böyük elm hövzələrinin uğurları barədə çoxlu sözlər danışılıb, yaddaşlarda var, bu sahədə müjdələr verilib və verilir. Lakin fikrimcə, bu axşam bu məclisdə gördüklərim mənim üçün bu sahədə eşitdiklərimin hamısından daha şirin, daha gözəl və daha inandırıcı idi. Bu gün hövzələrdə çiçəklənməkdə olan bu nəsil - burada çıxış edən qardaş və bacılar bu nəslin nümayəndələridir - heç şübhəsiz, bizim dini elm mərkəzindən gözlədiyimiz böyük işləri görə biləcək; bu şərtlə ki, bu hərəkət dayanmasın, günbəgün daha qüsursuz irəliləsin.

Mənim bu illər boyu elm hövzəsi barədə etdiyim təkliflərin – istər tələbə və müəllimlərlə keçirdiyimiz, yüzlərlə, bəzən minlərlə insanın iştirak etdiyi ümumi toplantılarda, istər hövzənin bəzi məsul şəxsləri ilə, yaxud hövzə böyükləri və ya təqlid müctəhidləri və alimlərlə keçirdiyimiz kiçik və xüsusi iclaslarda həmişə deyilən təkliflərin çoxu hələ həyata keçməmiş, yaxud yarımçıq həyata keçmişdir. Lakin biz görürük ki, İslam inqilabının özündən çağlayan, İslam inqilabının faydalarından olan və savabı böyük imamımızın pak ruhuna çatan coşqulu dini və elmi hərəkətdən bu qədər nailiyyətimiz olmuşdur. Sözügedən islahatçı fikirlərin çoxu hələ həyata keçməmişdir, lakin istehsal, keyfiyyət və dəyərli kadr məsələləri bu gün müşahidə etdiyimiz səviyyədədir. Bir nümunəsini mən bu axşam çıxış edənlərin sözlərində gördüm, doğrudan da çox gözəl idi. Digər nümunələrini mənimlə görüşən bəzi hövzə tələbələrində müşahidə etmişəm. Bir-iki il bundan öncə əqli elmlərdə, fəlsəfə, kəlam, irfan və məntiqdə araşdırma aparan hövzə alimlərinin mənimlə görüşən qrupunda da bunu gördüm. Universitetlərdə çalışan hövzə alimlərinin bir qrupu mənimlə görüşəndə də bu məsələ mənim

təsəvvürümdə canlandı. Bu çox əhəmiyyətli bir məsələdir. Yəni elm hövzələrində kadr inkişafı belədir. Bu ab-havanın və təbii şəraitin belə bir nəticəsi var. Biz hələ ideal vəziyyətə çatmamışıq. Əgər çatsaydıq, şübhəsiz, faydaları bir neçə dəfə, bəlkə də on dəfə artıq olardı. Mənim demək istədiyim birinci söz budur.

Mən burada sizinlə bölüşmək bəzi məsələləri qeyd etmişdim, lakin buna lüzum yoxdur. Təbii ki, vaxt da yoxdur, lakin vaxt olsaydı da, çox da vacib olmayacaqdı. Çünki mənim nəzərdə tutduğum bu məsələlərin çoxu sizin dilinizdən deyildi. Bu məsələlərin qardaşların diqətində olduğunu bilmək mənə çox xoşdur. Mən vaxtı nəzərə alıb yalnız iki-üç qısa məqama toxunacağam.

### *Bugünkü işlər sabahın rəhni kimi*

Biri budur ki, hövzə müxtəlif hissələrə malik bir küll olaraq canlı bir varlıqdır: inkişafı və xəstəliyi var, hərəkəti və fəaliyyəti var, dayanması və durğunluğu var, həyatı və ölümü var. Canlı bir varlıqdır. Dəlili də elm hövzələrinin tarixidir. Misal üçün, altıncı əsrin sonlarından səkkizinci əsrin əvvəllərinə qədər Hillə Elm Hövzəsi rövnəqli bir hövzə idi. Xacə Nəsirəddin Tusi Hilləyə gedəndə orada böyük alimlər toplaşmışdı. Mənim yadımda olan qədərincə, orada təxminən iyirmi-iyrimi beş böyük alim vardı. Onların biri Mühəqqiq Hilli idi, biri əllamənin atası, biri "Cami əş-şəraye" kitabının müəllifi olan Yəhya ibn Səid Hilli idi və ilaxir. Bu, Hillə hövzəsi idi. Lakin Hillə hövzəsi bu gün yoxdur. Nəcəf hövzəzi bir zaman ilkin rövnəqindən sonra hərəkətsiz qaldı. Nəcəf hövzəsində məşhur alim və görkəmli şəxsiyyət yox idi. Sonra Vəhid Bəhbəhaninin şagirdləri, o cümlədən Bəhrül-ülum və Kaşifül-ğita onu elə rövnəqləndirdilər ki, mənim fikrimcə, iki yüz ildir onların zəhməti Nəcəf hövzəsini inkişaf etdirir. Onların fiqhdə məharəti və işlərinin dərinliyi hövzəni

aktivləşdirdi, canlandırdı və beləcə, Allaha şükür olsun ki, son dövrlərə qədər canlı qaldı.

Qum hövzəsi yox idi. Keçmişdə ilkin canlanmadan sonra rövnəqsiz və zəif bir hövzə idi. Hacı Şeyx Əbdülkərim Hairi gəldi və hövzə canlandı. Elm hövzəsi belədir: bu günə baxmayın, sabahı da var. Bu sabah necədir? Bunu siz müəyyən etməlisiniz, bu gün müəyyən etmək lazımdır.

### *Yenilik üçün gələcəyə baxışın rolu*

Əgər bu gün hövzənin sütunları - yəni müdirlər, fikir sahibləri, müəllimlər və görkəmli şəxsiyyətlər iradə göstərib düzgün fikirləşsələr və proqram hazırlasalar, hövzə iyirmi ildən sonra səviyyə, dərinlik, en-uzun və genişlənmə baxımından indikindən dəfələrlə yaxşı olacaq. Əgər biz indi bir iş görməsək, xeyr, əsla bəlli deyil ki, Qum hövzəsi gələcəkdə indiki biçimində qalacaq, yoxsa yox. Böyüklər, tədqiqatçılar, yaxşı alimlər, fəqihlər və filosoflar hövzədən alınırlar, gedirlər. Bunların yerinə digər şəxsiyyətlər inkişaf etməli, çiçəklənməli, onların yerini tutmalı və onların etdiyindən daha artığını etməlidirlər. Bu iş görülsə, gələcəyə bu baxış olsa, sabah yaxşı olacaq. Əgər bu gün Qum hövzəsində gələcəyə bu baxış olmasa və mövcud vəziyyətə razı olsaq, indi hövzəni birtəhər idarə etməyimizlə qane olsaq, sabah ya hövzəmiz olmayacaq, yaxud tənəzzülə uğramış bir hövzəmiz olacaq.

Biz bu gün fikirləşirik ki, ölkəmizin nefti tükənəndə neftsiz enerjimiz olsun. O zaman bəlkə dünyanın heç bir yerində neft olmayacaq. Dünya o zamanın enerjisi barədə düşünür. Biz də gördüyünüz bu başağrıları ilə dayanmışıq ki, bu gün o gələcəyi təmin edək. Əgər etməsək, neftin bitdiyi gün biz olmayacağıq, lakin idarəçiliyimizin mənfi təsiri olacaq. Biz məsuliyyət daşıyacağıq.

### *Gələcək dünyanın elmi fərqləri*

Elə etməlisiniz ki, bu fikir hövzədə oturuşsun. Hövzənin həm müdirləri, həm Ali Şurası, həm böyük alimləri, həm böyük təqlid müctəhidləri bilməlidirlər ki, biz bu gün iyirmi ildən sonrakı Qum, İsfahan, Məşhəd, yaxud digər şəhərlərin hövzələri barədə, otuz ildən sonrakı hövzələr barədə düşünməliyik. Gələcək otuz il nə deməkdir? Güman ki, təhsil, təsir və işğal imkanları baxımından bugünkü dünya ilə heç bir oxşarlığı olmayan bir dünya. Əzizimiz burada informasiya texnologiyasını gözəl izah etdi. İyirmi il öncə bu texnologiya yox idi, çox zəif idi. Amma görün bu gün necədir.

Biz onda bu gün barədə fikirləşsəydik, bu gün boşluqda qalmazdıq. Bu gün hər bir evdə, hər bir məktəbdə, hər bir tərəfdə, birinin sözü ilə desəm, bəlkə də hər bir kənddə informasiya texnologiyasını müşahidə edirik. Elm hövzəsi geri qalmaq istəyir?! Gələcək otuz ili belə müqayisə edin. Əlbəttə, bir qədər daha artıq sürətlə; yəni ötən iyirmi ildə elmin sürəti gələcək iyirmi, otuz ildəki sürətindən, elm və texnologiya inkişafından dəfələrlə az olacaq.

O gün bəlkə də müxtəlif fikir sahibləri, müxtəlif ideologiyalar, azğın firqələr, pis niyyət sahibləri sizin universitetlərinizin dərs otaqlarını, məktəblərinizin siniflərini, evlərinizdəki övladlarınızı asanlıqla ələ alıb istədiyini edəcək və siz heç bir iş görə bilməyəcəksiniz. Elm hövzəsində o gün barədə fikirləşmək lazımdır. Məsuliyyət daşıyan elm hövzəsidir. Xalqın dindarlığına məsul olan ruhanilikdir. Ruhanilik də elm hövzəsinin övladı və məhsuludur. Məsuliyyəti bu baxışla ölçün. Məsuliyyəti belə ölçək ki, bizim çiynimizdə ağır yükün olub-olmadığını bilək. Bu bir məsələ: yəni gələcəyə baxış.

### Yeniliyin qaçılmaz olması və onun idarəsi – həyat və inkişaf amili

Bir məsələ budur ki, yeniliyi idarə edin. Baxın, əziz qardaş və bacılar, yenilik qaçılmazdır. Yenilik ilahi yaradılışın qanunudur. Mən dəfələrlə demişəm ki, yenilik baş verəcək. İndi bir şöbəni, bir varlığı təsəvvür edin ki, yeniliklə razılaşmır. O zaman bu iki vəziyyətdən birində olacaq: ya öləcək, ya təcrid olunacaq. Ya dəyişilmiş və yenilənmiş vəziyyətlərin qovğasında yaşamaq imkanı tapmayacaq, əl-ayaq altında əzilib məhv olacaq, ya əgər sağ qalsa da, təcrid olunacaq; son günlərdə bir qəzetdə oxuduğum meşə adamı kimi. Bir insan qırx il əvvəl gedib Mazandaran meşəsinə və xarici mühitlə çox zəif əlaqəsi olub; təcrid olunur. Getmək olar, dəyişiklikdən uzaqlaşmaq olar, amma təcrid olunmaqla. Hövzə yenilikdən qaçmaq istəsə, əgər ölməsə, diri qalsa da, təcrid olunacaq. Düzdür, din faktoru onu ölməyə qoymayacaq, amma təcrid olunacaq. Günbəgün daha artıq təcrid olunacaq.

Yenilik labüddür. Lakin yeniliyin iki tərəfi var: düzgün istiqamətdə olan yenilik, səhv istiqamətdə olan yenilik. Biz elə etməliyik ki, bu yenilik düzgün istiqamətdə baş versin. Bu, hövzənin aparıcı şəxslərinin vəzifəsidir. Hövzənin müdirləri, alimləri, nəzər sahibləri buna çalışmalıdırlar. Yenilikdən qaçmaq olmaz.

### *Yenilik – zamanla yenilənmək və proqramların təkmili*

İndi cənablar dedilər ki, təhsil və tədqiqat üsulunda, tələbə qəbulunda, dərs vəsaitində - bütün bunlarda yenilik lazımdır. Deməyin ki, on il, on beş il bundan qabaq lazım idi və bu proqramı yazdıq. Çox gözəl, bu proqram on il əvvəlin idi, görün onu necə təkmilləşdirmək olar. Yenilik budur. Yəni zamanla yenilənmək, vaxtında hərəkət etmək, hadisələrdən geri qalmamaq. Elm hövzələri müasir dövrdə təbii şəkildə dövrdən bir qədər geri qaldı. Bunda heç kəsi müqəssir saymaq olmaz. Çünki iniqilabın qələbəsindən, cəmiyyətdə bu güclü şimşəyin çaxmasından qaynaqlanan yeniliklərin

sürəti hər şeyi geridə qoydu. Bizim cəmiyyətimizin ziyalıları da geridə qaldı, universitetlərimiz də lazım olduğundan geridədir, elm hövzələri də. Yəni cəmiyyətimizin dəyişikliyinə uyğun olaraq yaranan bu böyük yenilik özünün bütün ətrafında, müxtəlif səviyyələrdə və çox dərinliklərə qədər təsir buraxdı. Biz bu yenilikdən geriyik. Hövzə bir qədər geridədir, lakin lazımi sürətlə və ciddiliklə bunu düzəldə bilər. Yeniliyi qəbul və idarə etmək, həm də çox ehtiyatlı olmaq lazımdır.

**Hövzə diplomlarının müstəqilliyi – yeniliyin idarəsinə bir nümunə**

Baxın, burada diplomdan söhbət güşdü. Mən əvvəldən hövzənin müstəqil diplomu üzərində təkid göstərənlərdənəm, indi də fikrim budur: hövzə Təhsil Nazirliyinin adı altında yox, öz adı ilə diplom verməlidir. Çünki hövzənin adı hər bir nazirliyin adından daha dərin, daha güclü və daha mühümdür. Hövzə öz diplomunu versin. Diplomun adını nə istəyirlər qoysunlar. Bəzi dostlar etiraz etdilər ki, nə üçün doktorantura, magistratura adlarından qaçıb adını üçüncü-dördüncü səviyyə qoyursunuz. Mənim bu barədə fikrim yoxdur, oturub müzakirə etsinlər, hansı qərara gəlsələr, o da olsun. Mən diplomun özünü qəbul edirəm, lakin diplompərəstlik zərərlidir. Tələbənin diplom üçün dərs oxumağı döyük bir eyibdir. Bu, yeniliyin sözügedən orta xəttidir. Diplom sahəsində yeniliyi idarə etmək budur. Diplom verin, amma həmişə yeni təhsil sisteminin eybi hesab etdiyimiz diplompərəstlikdən çəkinin. Bu, bir nümunədir.

***Təhsilin məzmununun dərkə əsaslanan dəyişikliyi***

Çıxış edənlər dərs vəsaiti barədə danışdılar. Tamamilə doğrudur. İndi zamanı yadımda deyil, amma Quma səfərlərin birində... Biri dedi ki, on ildir. Bilmirəm, mən elə bilirdim üç-dörd il

bundan əvvəl olub. Hər halda, Qumda alimlərlə iclasda dərs kitablarının dəyişdirilməsi məsələsini irəli sürdüm, dərhal əks-sədası ucaldı, etiraz etdilər. Əlbəttə, bu, gözlənilməz deyildi, bilirdim ki, kimlərsə buna qarşı çıxacaqlar. Amma dərs kitabları mütləq dəyişilməlidir, bunda heç bir şübhə yoxdur. Qardaşlarımızın birinin burada göstərdiyi dəlili mən qeyd etdim. Çox möhkəm dəlildir. Əgər dərs kitablarını dəyişdirmək pis olsaydı, gərək Məalim kitabını oxuyaydıq, daha Qəvanin, Rəsail, Füsul və Kifayə nə üçün yazıldı. Bəli, doğrudur, indi də belədir. İndi də dərs kitabı mütləq dəyişdirilməlidir. Elə etmək lazımdır ki, tələbənin diqqəti məzmunu başa düşməyə yönəlsin, mətnin tərcüməsinə yox. Bu, hünər deyil ki, biz mətni anlaşılmaz edək, yaxud qəsdən anlaşılmaz etməsək də, asanlaşdırmayaq, mətn dolaşıq qalsın və tələbə bundan ötrü nə qədər vaxt itirsin. Bunun harası hünərdir, harası yaxşıdır, bunda hansı xeyir yatır?! Yox, mətni elə aydın edək ki, mətləbi anlamağa istedadı olan tələbə onun üzündən asanlıqla anlasın. Müəllim də mətni başa salmağa çətinlik çəkməsin və təkcə məzmunu izah etsin.

Kifayəni yeni Kifayəyə çevirək. Nə eybi var?! Məkasib kitabında mətləbləri bəyan edərkən şeyxin üslubu daim çək-çevir etməkdir. Çünki bu, Şeyx Ənsarinin ali ixtisas (xaric) dərsidir. Məkasib elə-belə kitab deyil. Kim Şeyx Ənsari kimidir?! Eyni mövzuda bu qədər kitab yazıblar. Bu dərs yazılı formaya salınmışdır. Şeyxin xaric dərsində oturan adam üçün yaxşıdır, mətləbi daim bu tərəfə çəkir, o tərəfə çəkir, ehtimal irəli sürür. Lakin əsaslandırılmış fiqhi mətni üzündən öyrənmək istəyən üçün yaxşı deyil, tələbə çətinliyə düşür. Bunu asanlaşdırsınlar. Şeyxin eyni mətləblərini başqa bir kitabda, lakin səlis və aydın şəkildə yazsınlar. Şeyxin hər bir məsələdə olan tədqiqatını qəşəng surətdə bəyan etsinlər. Amma diqqətli olsunlar ki, şeyxin bəyan etdiyi olsun, yeni kitabda həmin sözü yazsınlar. Bu olacaq yeni Məkasib. Bu, vacibdir. Mənim fikrim belədir. Ola bilsin hövzənin məsul şəxsləri, müdirləri və bəzi görkəmli şəxslər qəbul etməsinlər və

bu iş həyata keçməsin. Amma bir gün, şübhəsiz, həyata keçəcək. Bu, məsələnin bu tərəfi.

### *Dərs vəsaiti dəyişikliyində elmi çəkini qorumaq*

Dedik ki, yenilik idarə olunmalıdır. Diqqət olunmalıdır ki, elmi çəki azalmasın, şeyxin sözünün səviyyəsi aşağı enməsin, axundun üsul elmindəki sözünün səviyyəsi aşağı enməsin, tələbə bu gün bizim fiqh və üsulumuzda mühüm və təsirli amillər olan bu əsaslara qarşı elmi boşluqda qalmasın, mətn düzgün, yaxşı və ərəbcə olsun. Mən hövzənin bəzi yazılarına baxıram. Bu cəhətdən bizim bir qədər zəifliyimiz var. Güclü və möhkəm olan bu yazıların mətnində və qələmində nöqsan olmasa, İslamın elmi toplumlarının hansı birinə getsə, dəyərli və qiymətli bir əsər kimi tanınar; çünki ərəb dilindədir, bizim elmi dilimiz də ərəb dilidir və hamı istifadə edə bilir. Buna əsasən, yenilik qaçılmazdır. Bu, yeniliyin bir-iki nümunəsi idi; nümunələr çoxdur. Onların çoxunu siz dostlar sözlərinizdə dediniz, mən bunları təsdiq edirəm. Bu yenilik idarə olunmalıdır.

### *Strateji proqramların kənarında müdiriyyəti təkmilləşdirmək*

İdarəçilik barədə də fikirlər var. Dostlar təkliflər etdilər ki, əsasnamə, nizamnamə və mənzərə sənədi yazılsın. Bunların hamısı yaxşı və düzgündür, lakin bacarıqlı müdiriyyət olmadan heç biri mümkün deyil. Nəticə gözlənilən bütün proqramlı və müsbət işlərin açarı müdiriyyətdir. Biz hövzədə müdiriyyəti təkmilləşdirməliyik.

Bəli, xoşbəxtlikdən son illərdə Ali İdarə Şurası və hövzədə müdiriyyət məsələsi qəbul olundu, iş görüldü, faydalarını da görürsünüz. Mən bu axşam cənabların sözlərindən bildim ki, hövzədə on iki elmi-ixtisaslı birlik var. Çox yaxşıdır, mən bunu bilmirdim: iqtisadiyyat elmi birliyi, psixologiya elmi birliyi, rical elmi birliyi, tarix elmi birliyi. Əlbəttə, bəzilərini bilirdik. Bu, müdiriyyətin işidir. Əgər

müdiriyyət olmasa, belə bir iş baş verməz. Lakin hövzədə təşkilatçılıq və idarəçilik sahəsində indiyə qədər görülən işlərlə kifayətlənmək olmaz.

**Siyasət və mənzərənin təsviri – müdiriyyətin iki mühüm vəzifəsi**

Bizim nöqsanlarımız var. Əvvəla Ali Şura siyasət təyin etmək məsələsinə çox əhəmiyyətli yanaşmalıdır. Elm hövzələrində birinci və prinsipial mərhələlərdə ən mühüm iş siyasət təyin etməkdir. Bu siyasətin müxtəlif cəhətləri var. Məgər biz demirik ki, elm istehsal etmək istəyirik? Yaxşı, hansı elm? Fiqh elminin inkişafı nə deməkdir? Misal üçün, üsul elminin inkişafının mənası nədir? İnkişaf etsin, yəni nə eləsin? Bu inkişafın istiqaməti necədir? Bütün bunlar cavabı lazım olan suallardır. Ali Şura mərkəzində təyin edilən siyasətlər bu suallara cavab verir.

Elm hövzəsinin gələcəyi üçün aydın mənzərə təsvir olunmalıdır; necə ki, ölkə məsələlərində iyirmiillik mənzərə sənədi yazıldı. Gəlin hövzə üçün də iyirmiillik, onillik bir mənzərə hazırlayaq. Bu, elm hövzəsinin Ali Şurasının işidir.

Ali Şura bu işi nə zaman görə bilər? O zaman görə bilər ki, onun möhtərəm üzvləri bunun üçün kifayət qədər vaxt ayırsınlar, buna vaxtları olsun. Yəni hövzənin Ali Şurasına üzvlük əsas işlərin yanında ikinci dərəcəli bir iş olmamalıdır. Siz görün bir universitetin idarəsi, yaxud bir qurumun siyasət təyin edəni necə işləyir. Belə böyük elm hövzəsi - istər Qum, istər Məşhəd, istər İsfahan hövzəsi kənardan idarə oluna bilməz. Vaxt sərf olunmalıdır. Bu bir.

**Ali müdiriyyətin vəzifələrindən biri: hövzə ekspertliyini gücləndirmək**

İkincisi budur ki, çox güclü bir ekspert dəstəyi olmalıdır. Xoşbəxtlikdən, bizim hövzəmizdə bu ekspert dəstəyi mövcuddur:

sizin özünüz, bu axşam çıxış edənlərin və etməyənlərin çoxu. Yəqin ki, elm hövzəsində belə gənc və düşüncəli tələbələr çoxdur. Bunlar şübhəsiz, hövzənin ekspert dəstəyini təmin edə bilərlər. Hövzə işlərində bizim kənar adama heç bir ehtiyacımız yoxdur. Bu kadrlardan istifadə etmək olar. Təbii ki, bu ekspertlər də işləməli, çalışmalıdır. Ali Şuranın işlərindən biri budur.

**Günün elmindən xəbərdar olan Proqram şurasının yaradılması**

Ali Şuranın yanında hövzədə müdiriyyət orqanı var. Bu, çox əhəmiyyətlidir. Hövzə üçün mütləq proqram hazırlayan şura olmalıdır. Bəzi cənablar da çıxışlarında dedilər ki, proqramlar bəzən uyğun olmur. Yaxud bir bacımız qadınlara aid proqramlar barədə dedi ki, proqramlar müxtəlif səviyyələrə münasib deyil. Bunlar tamamilə yerli iradlardır. Bunları kim düzəltməlidir? Modern proqram inkişafları ilə tanış olan bir heyət.

Bu gün proqram hazırlamaq digər elmlər kimi bir elmdir. Bu, təkcə anadangəlmə istedada bağlı deyil. Düzdür, o da təsirlidir, amma bu gün bu, elmi bir işdir. Bu işin mütəxəssislərindən istifadə etmək lazımdır. Onlar ekspert heyətində iştirak edib proqram hazırlasınlar.

***Statistika və dəyərləndirmənin lazımlığı***

Hövzənin idarəsi üçün lazım olan işlərdən biri statistikanı öyrənməkdir. Mən dostların çıxışları əsnasında buna toxundum. Bizim hövzə haqda dəqiq statistikamız yoxdur, ölkə ruhaniləri haqda isə heç yoxumuzdur. Ölkədə ruhanilərin sayı, təhsil səviyyəsi, təbliğat bacarıqları, təsir imkanları - bunlar bizim statistika və məlumatlarda ümumiyyətlə, əks olunmur. Bizim belə statistikalarımız yoxdur. Statistika da bir elmdir. Görülməsi, tez başlanması lazım olan və bir neçə il çəkəcək, lakin faydaları olduqca çox olacaq işlərdən biri də

budur. Hövzə tələbələri, onların sayı, səviyyələri, təhsil inkişafları və digər bu kimi məsələlər haqda statistikamız olmalıdır. Bilməliyik ki, hövzənin tabeliyində nə var və nə ilə işləməlidir. Bizdə bu çatışmazlıq da var. Statistikanın ardınca dəyərləndirmə gəlir. Bu da idarəçiliyə aid məsələlərdəndir. İdarəetmə və koordinasiya məsələsində bu haqda danışacağıq.

### *Elmi azadfikirliliyin lazımlığı və uyğun ənənənin yaradılması*

Mənim çox vacib saydığım məsələlərdən biri də azadfikirlilikdir. Burada çıxış edənlərin bəzisi buna toxundu. Nə üçün Qumda azad diskussiyalar təşkil olunmur? Bunun nə eybi var?! Bizim elm hövzələrimiz həmişə elmi azadfikirliliyin mərkəzi və beşiyi olmuşdur. İndinin özündə də biz bununla fəxr edirik. Elm hövzəsindən başqa təhsil mərkəzlərində belə bir şey yoxdur ki, şagird dərsdə müəllimə irad bildirsin, acıqlansın, müəllim də ondan düşmənçilik və qərəz duymasın. Tələbə azad şəkildə iradını bildirir, müəllimdən əsla çəkinmir, müəllim də bundan əsla incimir və narahat olmur. Bu, çox mühüm məsələdir və hövzəyə aiddir. Bizim elm hövzələrimizdə həm fiqhdə, həm də bəzi daha köklü sahələrdə ixtisaslaşmış böyük alimlər olmuşdur. Filosof, arif və fəqihlər bir-birinin yanında yaşayır, bir yerdə işləyirdilər. Bizim hövzələrimiz keçmişdə belə olmuşdur. Birinin bir elmi əsası vardı, digəri onu qəbul etmirdi. Əgər böyük alimlərin həyatına baxsanız, bunu müşahidə edərsiniz.

Mərhum Hədaiq sahibi ilə mərhum Vəhid Bəhbəhani bir-birinə müxalif idilər. Hər ikisi eyni zamanda Kərbəlada yaşayırdı, birgə elmi mübahisələr də edirdi. Bir gecə onlar şəhidlər ağası İmam Hüseynin (ə) pak məqbərəsində bir məsələ üstündə mübahisəyə başladılar. Bu iki ruhani sübh azanına qədər ayaq üstə mübahisə etdilər. Vəhid Bəhbəhani o zaman nisbətən gənc idi, lakin Hədaiq sahibi qoca kişi

idi. Onlar bir-biri ilə mübahisə də edirdilər, amma hər ikisi bir idilər, hər ikisi tədris edirdilər. Mən eşitdim ki, Vəhidin şagirdləri - Vəhid əxbarilərin qatı əleyhdarı idi - olan Riyaz sahibi və digərləri gedib Hədaiq sahibinin dərsində də iştirak edirdilər. Belə olmuşdur. Biz hövzədə dözümlülük səviyyəsini yüksəltməliyik. Bəli, birinin fəlsəfi zövqü var, birinin irfan zövqü var, birinin fiqh zövqü. Ola bilsin bir-birlərini qəbul etməsinlər. Mən bir neçə ay öncə Məşhəddə dedim ki, mərhum ağa Şeyx Müctəba Qəzvini uca hikmət fəlsəfəsinə, Molla Sədranın üslubuna qarşı idi. O bu məsələdə olduqca kəskin və sərt idi. İmam isə Molla Sədra məktəbinin xülasəsidir. Təkcə fəlsəfi sahədə yox, irfanda da belədir. Amma mərhum ağa Şeyx Müctəba imamı nəinki qəbul, hətta təbliğ də edirdi; ömrünün sonuna qədər imamı təbliğ etdi. O, imamı görmək üçün Məşhəddən Quma gəldi. Mərhum ağa Mirzə Cavad Tehrani Məşhəddə həmin məktəbin görkəmli nümayəndələrindən idi, imamın televiziyadan yayımlanan təfsir dərsinə etiraz etmişdi, amma cəbhəyə getdi. Mənim özümə dedi. Həm o, həm mərhum ağa Mirvarid belə idilər, amma müdafiə də edirdilər. Üslub və məktəb baxımından müxalif, lakin siyasi, ictimai və dostluq baxımından bir idilər, bir-birinə dözürdülər. Qumda belə olmaq lazımdır.

Bir nəfər yeni bir fiqhi nəzər irəli sürür. Çox gözəl, qəbul etməyin. Dəyirmi masa təşkil olunsun və mübahisə edin. Beş nəfər, on nəfər alim gəlib bu fiqhi nəzəri dəlillə rədd etsinlər, eybi yoxdur. Bir fəlsəfi fikir irəli sürülür, yenə də belə. Maarif və kəlam nəzəriyyəsi irəli sürülür, yenə belə etmək lazımdır. Təkfir (kafir elan etmək) və bu kimi məsələləri hövzədən yığışdırmaq lazımdır; özü də hövzə daxilində böyük və görkəmli alimlərə qarşı. Sözünün bir hissəsi mənim fikrimə müxalifdir; mən ağzımı açım onu sıradan çıxarım. Belə olmaz. Buna tələbələrin öz daxilindən başlamaq lazımdır. Bu elə bir şeydir ki, tələbələrin özləri vasitəsilə mübahisə və müzakirə masaları təşkil edilmədən və qeyd etdiyim azadfikirlilik hərəkatı başlatmadan

mümkün deyil. Bunu elm hövzəsində adət halına salın, jurnallarda və yazılarda deyilsin. Bir nəfər fiqhdə bir söz deyirsə, bir nəfər onun əleyhinə bir yazı yazsın, kimsə onu qəbul etməsə, o da bir tənqidi yazı yazsın. Eybi yoxdur, qoyun bir-biri ilə elmi mübahisə etsinlər. Mənim fikrimcə, elmi mübahisə yaxşıdır.

### *Din alimlərinin ictimai mövqeyi və elmi şuraların təşkili*

Bir məsələ də alim və müəllimlərin ictimai mövqeyi məsələsidir. Bu da bizim problemlərimizdən biridir. İndi bəzi dostlar bir təklif irəli sürdülər, mən onu açıqlamaq istəyirəm. Təklif budur ki, Qumda Elmi Şura yaradılsın. Yəni müxtəlif pillə və fənlər üçün rəsmən elmi şuralar qəbul olunsun. Bir nəfər bir həddə çatdıqda, bir imtahandan keçdikdə Qum Elmi Şurasının üzvü olsun. Bu, elmi bir ad olsun. Əlbəttə, mən bunun oxşarını bir neçə il bundan öncə Müdərrislər cəmiyyətinin möhtərəm üzvlərinə dedim. Dedim dairəni bir qədər genişləndirsinlər, amma deyəsən nəzərdə tutulan formada olmadı və həyata keçmədi. İndi bu forma irəli sürülür.

Hər halda, hövzədə iş çoxalıb. Görülməsi lazım olan, yaxud indiyə qədər görülməyən işlər aktuallığını itirməyibsə, bundan sonra görülməlidir. Belə işlər indiyədək hövzədə gördüyümüz işlərdən yüz dəfə artıqdır və bu yüz qat artıq işləri görmək olar; bu şərtlə ki, sizlər iştirak edəsiniz, iradə ilə işə girişəsiniz. Siz səhnəyə çıxın. Hansınızın hansı sahədə nəzəri və ixtisası varsa, o sahədə işləsin. İnşallah hövzə rəhbərliyi də sizin qüvvənizdən istifadə etsin.

Mən bu təkliflərin bəzilərini qeyd etdim, lakin bunların hamısı yazılmışdır. Mənim fikrimcə, çox yaxşıdır. Bəlkə də burada deyilən sözlərin hamısının yazılıb bir kitab formasında nəşr olunması lazımdır. Fikrimcə, bu, çox münasib olardı. İnsanın ürəyi istəyir ki, bunlar televiziyada yayımlansın, lakin mən zərurət və imkanlarla çox da tanış olmadığımdan bu işin nə qədər mümkün olduğunu

bilmirəm. Ona görə bunu demirəm. Əgər bu da mümkün olsa, lap yaxşı olar. Lakin ən azı budur ki, bizim dostlarımız - istər burada, istərsə də Qumdakı dəftərxanada çalışan dostlar oturub bu sözləri çıxarsınlar, redaktə etsinlər və yaysınlar. Bunun özü çox faydalı və yaxşıdır.

### *Mədrəsə müdirlərinin təcrübələrini paylaşması*

Burada deyilən və mənim xoşum gələn, bəyəndiyim təkliflərin biri budur ki, ölkənin elm hövzəsi mədrəsələrinin müdirləri seminarlar təşkil etsinlər, bir yerdə otursunlar, təcrübələrindən istifadə etsinlər. Bunlar çox yaxşıdır.

### *Hövzə və İslam quruluşunun əlaqəsi*

Mənim fikrimcə, çox yaxşı işlərdən biri İslam dövlətindən və İslam quruluşundan müxtəlif formalarda irəli sürülən gözləntilərdir. Bəli, nə qədər ki, hövzənin vahid rəhbərliyi yoxdur, bunların bəzisi əsla mümkün deyil. Yəni hövzənin idarəsi elə olmalıdır ki, inşallah idarəçi, mütəfəkkir, hamının etimad göstərdiyi və işlərdən xəbərdar olan bir mərkəz formalaşsın, sonra kimsə onunla işləyə bilər. Çünki burada deyilən təkliflərin çoxu hövzənin imkanlarından asılıdır. Fərz edin gəlib hövzə alimlərindən, hövzənin düşüncələrindən istifadə etsinlər. Yaxşı, kiminlə, harada, necə? Bunun üzərində işlənməlidir. Hövzədə iş görmək lazımdır. Əlbəttə, İslam quruluşu hövzədən istifadə etməyə və bu münasibəti qurmağa borcludur. Lakin deyilən əlaqələrin bir hissəsi indi də mümkündür.

### *Beynəlxalq təbliğat üçün təhsil müəssisəsi açmağın zəruriliyi*

Cənabların irəli sürdüyü və mənim də bəyəndiyim təkliflərdən biri beynəlxalq təbliğat üçün bir təhsil müəssisəsi açmaqdır. Əlbəttə,

mən bunu təxminən 14-15 il öncə dedim. O zaman hövzənin böyüklərindən olan və bu gün də Allahın lütfü ilə faydalı ömrü davam edən alimlərin biri müalicə üçün Avropa ölkələrindən birinə getmişdi. Orada gənclər, tələbələr və iranlılar ona müraciət edirlər ki, misal üçün, gəlin buraya filan məclisdə söhbət edin, filan yerdə çıxış edin. Bu böyük və möhtərəm cənabı bir ay, yaxud bir qədər artıq saxladılar və o, ehtiyacları gördü. Buraya gələndən sonra məndən görüş aldı və acıqla dedi ki, bu qədər ehtiyac var, siz nə üçün bunları aradan qaldırmırsınız? Mən dedim ki, biz bəzi işlər görmüşük, lakin əlimiz boşdur. İndi bu meydan, bu da siz: gedin Quma, bütün dünya üçün dini təbliğatçılar yetişdirən bir mərkəzin proqramını hazırlayın, xərci də mənim öhdəmə; mən bütün xərclərini verərəm. Siz bunun üçün xüsusi bir mədrəsə açın. Mən Quma gəlib mədrəsə aça bilmərəm. O getdi və bir müddət çalışdı. Fikrimcə, Qumda elan da verildi ki, kimsə iştirak etmək istəyirsə, gəlsin. Sonra isə yaddan çıxdı. İndiyə qədər də yaddan çıxıb. Bu işi görün, bu, çox yaxşı və zəruri işdir.

### *Minbərin əhəmiyyəti və təbliğatçı yetişdirmək*

Minbər barədə də danışdılar. Bu mənim həmişəki sözlərimdəndir. Bizim sözümüzün həmişəki nəqəratlarından biri də minbərin uca tutulması, əhəmiyyəti və təbliğatçı yetişdirmək məsələsidir. Çox gözəl, bu meydan, bu da siz. Gedin məşğul olun, proqram hazırlayın, işə başlayın. Bunun üçün güclü və tutarlı proqram hazırlayın və başlayın. Əlbəttə, çoxlu problemlər var. İşə başlayanlar yavaş-yavaş problemlərlə tanış olacaqlar. Lakin inanıram ki, siz gənclik enerjisi, əzmkarlıq, iradə və inamınızla bütün bu problemləri həll edə bilərsiniz.

İlahi, bizim bu məclisimizi İslam, müsəlmanlar və ruhanilik üçün xeyir-bərəkətli et! Deyib-eşitdiklərimizi Özün üçün və Öz yolundakı işlərdən say!

İlahi, bizi, qiyamətdə soruşacağın sualların cavabına hazır et!

İlahi, bütün bu uğurların və mövcud imkanların səbəbkarı olan əziz şəhidlərimizin pak ruhlarını və Böyük İmamın pak ruhunu öz övliyalarınla birgə et və bizdən razı sal!

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.